# HƏYAT BİLGİSİ 7

METODİK VƏSAİT




LAYİHƏ

Nüşabə Məmmədova
Könül Mahmudova
Sevil Bəhrəmova

# HƏYAT BİLGİSİ

# 7

*Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün*
*Həyat bilgisi fənni üzrə dərsliyin*

METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB
BAKI 2018

LAYİHƏ

# MÜNDƏRİCAT


DƏRSLİK KOMPLEKTİ HAQQINDA ........................................................4
7-ci SİNİF HƏYAT BİLGİSİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI ......6
FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ ..8
HƏYAT BİLGİSİ FƏNNİNİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN
TƏLİM FORMA VƏ ÜSULLARI ........................................................ 10
ŞAGİRDLƏRİN QRUPLARA BÖLÜNMƏSİ ÜSULLARI ............................ 16
İLLİK PLANLAŞDIRMANIN APARILMASINA DAİR TÖVSİYƏLƏR ........17
ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR
TÖVSİYƏLƏR ........................................................ 20
ŞAGİRDLƏRİN MÖVZULARI MƏNİMSƏMƏ ÜSULLARI ........................ 25
MÖVZULARIN GÜNDƏLİK PLANLAŞDIRILMASINA DAİR
NÜMUNƏLƏR ........................................................ 25

***I TƏDRİS VAHİDİ. SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT***

EMOSİYALAR HƏYATI BƏZƏYİR ........................................................35
SAĞLAMLIĞIMIZIN QAYĞISINA QALAQ ..............................................36
HANSI TƏHLÜKƏLƏRLƏ RASTLAŞA BİLƏRİK? ......................................38
EHTİYATI ƏLDƏN VERMƏYƏK ........................................................39
BUNLARI HAMI BACARMALIDIR ........................................................40
I TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ
VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR ..................................................42

***II TƏDRİS VAHİDİ. MƏNƏVİ HƏYAT***

MƏNƏVİ BORC ........................................................45
DİN VƏ MƏDƏNİYYƏT ........................................................46
DOĞRU VƏ YANLIŞ DÜŞÜNCƏ ........................................................47
DAVRANIŞIMIZIN MƏNƏVİ “MÜHƏRRİK”LƏRİ ....................................48
DİLİN BƏLALARI: QEYBƏT VƏ İFTİRA ..............................................49
II TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ
VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR ..................................................50


LAYİHƏ

***III TƏDRİS VAHİDİ. BİZİ ƏHATƏ EDƏN MÜHİT***
HƏRƏKƏT MATERİYANIN XASSƏSİDİR ........ 53
TƏBİƏTDƏKİ QARŞILIQLI TƏSİRLƏR ........ 54
ENERJİ VƏ ENERJİ ÇEVRİLMƏLƏRİ ........ 55
İNSAN VƏ ƏTRAF MÜHİT ........ 56
MEŞƏLƏR PLANETİMİZİN "AGCİYƏR"İDİR ........ 58
III TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR ........ 60

***IV TƏDRİS VAHİDİ. CƏMİYYƏTİN TƏLƏBATI***
DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİMİZ ........ 64
DÖVLƏTİN İDARƏETMƏ FORMALARI ........ 65
CƏMİYYƏTİN HƏYATI ........ 66
CƏMİYYƏT VƏ TƏŞKİLATLAR ........ 68
HÜQUQ SAHƏLƏRİ ........ 69
NORMATİV HÜQUQİ SƏNƏDLƏR ........ 71
KONSTİTUSİYADA TƏHSİL HÜQUQU ........ 73
ƏMƏK VƏ ONUN NÖVLƏRİ ........ 74
İQTİSADİ PROSESLƏRDƏ ƏMƏYİN ROLU ........ 75
IV TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR ........ 77
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ........ 80



LAYİHƏ

# DƏRSLİK KOMPLEKTİ HAQQINDA

**Hörmətli müəllimlər!** Siz artıq bilirsiniz ki, Həyat bilgisi fənninin tədrisi ibtidai və ümumi orta təhsil səviyyələrində nəzərdə tutulur. 7-ci sinif şagirdləri üçün nəzərdə tutulmuş dərslik komplekti dərslik və metodik vəsaitdən ibarətdir. Dərslik komplekti Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün 7-ci sinif Həyat bilgisi fənn proqramı (kurikulumu) əsasında hazırlanmışdır.

Dərsliyin və dərslikdən daha effektiv istifadə üçün nəzərdə tutulan Metodik vəsaitin bəzi xüsusiyyətlərini nəzərinizə çatdırmaq istərdik.

Dərslikdə Həyat bilgisi fənn kurikulumunun məzmununa daxil olan bütün məzmun standartları 4 bölmə üzrə qruplaşdırılmış 25 mövzuda reallaşdırılmışdır.

Standartların reallaşdırıldığı bütün mövzularda maksimum səviyyədə şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmış, onların sadə dildə və lakonik olması gözlənilmişdir. Bu məqsədlə çoxsaylı sxemlərdən, şəkillərdən, praktik tapşırıqlardan istifadə olunmuş, yeni sözlərin, terminlərin izahına, maraqlı məlumatlara yer ayrılmışdır. Təlim materialları sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmaqla düzülmüşdür. Hər bir mövzunun sonunda verilmiş sual və tapşırıqlar şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına yönəldilmişdir. Ümid edirik ki, bu tapşırıqlar sizlərə standartları reallaşdırmaqda köməklik göstərəcəkdir.

Dərslikdəki hər bir mövzu aşağıdakı kimi qruplaşdırılmışdır:












LAYİHƏ

Ⓐ **Motivasiya.** Mövzu ilə bağlı problemli situasiya yaradılır və bəzi hallarda suallarla yekunlaşır.

Ⓑ **Araşdırma məqsədilə verilmiş tapşırıqlar.** Maraq yaradılan hadisələrin araşdırılmasına yönəlmiş tədqiqat xarakterli tapşırıqlardan ibarətdir. Bu bənd bir qisim mövzular üçün nəzərdə tutulmuşdur. Bu məqsədlə hansısa bir hadisə verilir və bu hadisənin başvermə səbəbi, nəticələri araşdırılaraq digər şagirdlərlə müzakirə edilməsi nəzərdə tutulur.

Ⓒ **Yeni biliklər.** Mövzu ilə bağlı izahatlar, dərsin əsas məzmunu dərsliyin bu hissəsində verilir.

Ⓓ **Diqqət yetirilməli fikirlər.** Mövzu ilə bağlı statistik məlumatlar, maraqlı faktlar və hadisələr haqqında məlumatlar verilir.

Ⓔ **Yeni terminlər.** Standartın reallaşmasına xidmət edən yeni terminlərin izahı verilir.

Ⓕ **Suallar və tapşırıqlar.** Standartda nəzərdə tutulan əsas bilik və bacarıqların hansı səviyyədə reallaşdırılmasını müəyyənləşdirməyə xidmət edir. Təqdim olunmuş tapşırıqlar məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafına yönəlmişdir. Bu tapşırıqların tədqiqatın aparılması mərhələsində, ev tapşırıqlarının verilməsində istifadəsi nəzərdə tutulmuşdur.

Metodik vəsait sizə öz işinizi qurmağa – dərsi planlaşdırmağa, qiymətləndirmə vasitələrinin hazırlanmasına köməklik göstərəcəkdir.

Metodik vəsaitdə hər bir mövzunun tədrisi ilə bağlı tövsiyələr öz əksini tapır. Bu tövsiyələr bizim tərəfimizdən sizə istiqamət vermək üçün tərtib olunmuşdur. Verilmiş standartların tələblərini aşmamaq şərtilə öz sinfinizin, məktəbinizin, regionunuzun imkan və şəraitinə müvafiq strategiyanızı müəyyənləşdirə bilərsiniz. Ümidvarıq ki, hazırladığımız dərslik və metodik vəsait bu işdə sizə düzgün istiqamət verəcəkdir.

Metodik vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

- **7-ci sinif Həyat bilgisi fənni üzrə məzmun standartları**
- **Fənn üzrə məzmun standartlarının reallaşma cədvəli**
- **Həyat bilgisi fənninin tədrisində istifadə olunan təlim forma və üsulları**
- **Şagirdlərin qruplara bölünməsi üsulları**
- **İllik planlaşdırmanın aparılmasına dair tövsiyələr**
- **Şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr**
- **Şagirdlərin mövzuları mənimsəmə üsulları**
- **Mövzuların gündəlik planlaşdırılmasına dair nümunələr**
- **Summativ qiymətləndirmə vasitələri**
- **İstifadə edilmiş və müəllimin istifadə edə biləcəyi mənbələr**

LAYİHƏ

# 7-ci SİNİF HƏYAT BİLGİSİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

**7-ci sinfin sonunda şagird:**

- Təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir;
- İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir;
- Cəmiyyətin və dövlətin idarəetmə formalarını fərqləndirir;
- Hüquqi sahələri fərqləndirir, normativ hüquqi sənədlərə istinad etməklə hüquq sahələrinə dair təqdimatlar hazırlayır;
- Əmək və onun növlərinin iqtisadi proseslərdəki rolunu şərh edir;
- Ünsiyyət qaydalarından istifadə bacarıqları nümayiş etdirir, müxtəlif əxlaqi keyfiyyətləri nümunələrlə əsaslandırır;
- Təbiət və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirir, dini-əxlaqi dəyərlərin mədəniyyətlərin formalaşmasına təsirini şərh edir;
- Sağlamlığın mənəvi, psixoloji və emosional aspektlərini fərqləndirir;
- Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirir, ictimai nəqliyyatda davranış qaydalarına dair bacarıqlar nümayiş etdirir;
- Fövqəladə hadisələr zamanı ilkin tibbi yardım göstərir.

**Məzmun xətləri üzrə əsas və alt standartlar**

**1. Təbiət və biz**
**Şagird:**
***1.1. Varlıq, təbiət və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.***
1.1.1. Təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir.

***1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.***
1.2.1. İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir.

**2. Fərd və cəmiyyət**
**Şagird:**
***2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***
2.1.1. Cəmiyyətin idarəetmə formalarını fərqləndirir.
2.1.2. Dövlətin idarəetmə formalarını fərqləndirir.

***2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.***
2.2.1. Hüquq sahələrini fərqləndirir.
2.2.2. Normativ hüquqi sənədlərə istinad etməklə hüquq sahələrinə dair təqdimatlar hazırlayır.
***2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***
2.3.1. Əmək və onun növlərinin iqtisadi proseslərdəki rolunu şərh edir.



LAYİHƏ

**3. Mənəviyyat**
**Şagird:**
***3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.***
3.1.1. Ünsiyyət qaydalarından istifadə bacarıqları nümayiş etdirir.

***3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.***
3.2.1. Müxtəlif əxlaqi keyfiyyətləri nümunələrlə əsaslandırır.
3.2.2. Təbiət və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirir.

***3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.***
3.3.1. Dini-əxlaqi dəyərlərin mədəniyyətlərin formalaşmasına təsirini şərh edir.

**4. Sağlamlıq və təhlükəsizlik**
**Şagird:**
***4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.***
4.1.1. Sağlam həyat tərzini şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.

***4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***
4.2.1. Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirir.
4.2.2. İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarına dair bacarıqlar nümayiş etdirir.

***4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdirir.***
4.3.1. Fövqəladə hadisələr zamanı ilkin tibbi yardım göstərir.



LAYİHƏ

# FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ

| Mövzu | Alt standart | İnteqrasiya | Saat |
|---|---|---|---|
| **I tədris vahidi. Sağlam və təhlükəsiz həyat** | | | |
| Emosiyalar həyatı bəzəyir | 4.1.1. | Ə.: 2.1.2; Azərb.d.: 3.1.1. | 1 |
| Sağlamlığımızın qayğısına qalaq | 4.1.1. | B.: 2.1.2 | 1 |
| Hansı təhlükələrlə rastlaşa bilərik? | 4.2.1. | K.: 4.1.1. | 1 |
| Ehtiyatı əldən verməyək | 4.2.2. | Azərb.d.: 1.2.1. | 1 |
| Bunları hamı bacarmalıdır | 4.3.1. | F-t.: 4.1.3. | 2 |
| KSQ | | | 1 |
| **II tədris vahidi. Mənəvi həyat** | | | |
| Mənəvi borc | 3.2.2. | Azərb.d.: 1.2.4; 2.2.3. | 1 |
| Din və mədəniyyət | 3.3.1. | Az.t.: 5.1.3; Üm.t.: 5.1.1; 5.1.3. | 1 |
| Doğru və yanlış düşüncə | 3.1.1. | Ə.: 1.2.4. | 1 |
| Davranışımızın mənəvi “mühərrik”ləri | 3.2.1. 4.1.1. | Ə.: 2.1.2. | 1 |
| Dilin bəlaları: qeybət və iftira | 3.1.1. 4.1.1. | Ə.: 1.2.4. | 1 |
| KSQ | | | 1 |
| Ümumiləşdirici dərs | | | 1 |

LAYİHƏ

| Mövzu | Alt standart | İnteqrasiya | saat |
|---|---|---|---|
| **III tədris vahidi. Bizi əhatə edən mühit** | | | |
| Hərəkət materiyanın xassəsidir | 1.1.1. | C.: 2.1.1;<br>2.1.3; 2.1.5;<br>B.: 2.1.1. | 1 |
| Təbiətdəki qarşılıqlı təsirlər | 1.1.1. | Fiz.: 2.2.1. | 1 |
| Enerji və enerji çevrilmələri | 1.1.1. | Fiz.: 1.1.4. | 1 |
| İnsan və ətraf mühit | 1.2.1. | B.:1.1.2;<br>4.1.1. | 1 |
| Meşələr planetimizin “ağciyər”idir | 1.2.1. | B.: 4.1.1. | 2 |
| Ümumiləşdirici dərs | | | 1 |
| Cəmiyyətin həyatı | 2.1.1. | Üm.t.: 3.1.1. | 1 |
| Cəmiyyət və təşkilatlar | 2.1.1. | Üm.t.: 3.1.1. | 1 |
| Hüquq sahələri | 2.2.1. | Üm.t.: 3.1.1. | 1 |
| KSQ | | | 1 |
| Normativ hüquqi sənədlər | 2.2.2. | Az.t.: 5.1.3. | 2 |
| Konstitusiyada təhsil hüququ | 2.3.1. | C.: 3.2.3. | 1 |
| Əmək və onun növləri | 2.2.1. | Üm.t.: 3.1.2. | 1 |
| İqtisadi proseslərdə əməyin rolu | 2.3.1. | C.: 3.2.3. | 1 |
| Ümumiləşdirici dərs | | | 1 |
| KSQ | | | 1 |
| Cəmi: | | | 34 |

*Azərb.d. – Azərbaycan dili, Riy. – Riyaziyyat, İnf. – İnformatika, Tex. – Texnologiya, T-i. – Təsviri incəsənət, F-t. – Fiziki tərbiyə, Az.t. – Azərb. tarixi, Üm.t. – Ümumi tarix, C. – Coğrafiya, B. – Biologiya, Fiz. – Fizika, Ə.– Ədəbiyyat*

LAYİHƏ

## HƏYAT BİLGİSİ FƏNNİNİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN TƏLİM FORMA VƏ ÜSULLARI

Məktəb təcrübəsindən də bilirsiniz ki, şagirdlər, xüsusən də əksər yeniyetmələr yalnız kitab və müəllimin şərhi ilə kifayətlənmir, özü düşünməyə, axtarmağa, tədqiqatçılığa meyil göstərir. Elə bu baxımdan artıq ənənəvi üsullarla keçilən dərs yeniyetmə şagirdlər üçün o qədər də maraq doğurmur. Bu cür dərslərdə onlar müəllimi dinləməkdənsə, özləri tədqiqat aparmağa üstünlük verirlər. Yaradıcı müəllimlər bunu nəzərə alaraq müvafiq strategiya müəyyənləşdirir, şagirdlər üçün elə bir mühit yaratmağa çalışırlar ki, şagirdlər axtarışlar edə-edə öyrənsinlər.

Təlim formaları (kollektivlə iş, qruplarla iş, cütlərlə iş və fərdi iş) təlim strategiyasının bir hissəsi olub, dərsin məqsədinə uyğun olaraq müəyyənləşdirilir. Şagirdlərin fəaliyyətləri bu forma üzərində qurulur.

***Qruplarla iş***. Müəyyən problemi həll etmək üçün qruplar təşkil olunur. Bu zaman problemi şagirdlərlə müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və əməkdaşlıq bacarıqları inkişaf etdirilir.

***Cütlərlə iş.*** Bu təlim forması şagirdlərdə daha yaxından əməkdaşlıq etmək, ünsiyyət qurmaq, məsuliyyəti bölüşmək imkanı yaradır. Lakin bu əməkdaşlığın əhatə dairəsi çox azdır.

***Fərdi iş.*** Fərdi iş zamanı şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaranır. Müəllim şagirdin fəaliyyətini tam obyektiv qiymətləndirə bilir.

***Kollektivlə iş.*** Bu təlim forması şagirdlərdə kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsini qoyur.

Nəzərə almaq lazımdır ki, təlim formalarından istifadə edərkən dərsin məqsədləri nəzərə alınmalıdır.

Fəal təlim üsulları da təlim strategiyasının bir hissəsidir. 7-ci sinif şagirdlərinin problemlərin həllinin müstəqil axtarışı və təlim prosesində tədqiqatçılığa meyillərini, yeni biliklərə yiyələnmək, yaradıcı düşünmə qabiliyyətlərinin inkişafını nəzərə alaraq fəal təlim üsullarından istifadə məqsədəuyğun hesab olunur.

Dünya təcrübəsində fəal təlim üsulları onlarladır. Həyat bilgisi fənninin tədrisində, əsasən, klaster, beyin həmləsi, ziqzaq, müzakirə, karusel, BİBÖ, anlayışın çıxarılması, İNSERT, fasiləli oxu, Venn diaqramı, qərarlar ağacı və s. təlim üsullarından geniş istifadə etmək olar.

**Beyin həmləsi**

Bu üsul "Əqli hücum" da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya pis) bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideya-



LAYİHƏ

ların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənilmiş fikirləri təhlil edir, qiymətləndirirlər.

Bu üsuldan, demək olar ki, bütün mövzuların tədrisində istifadə etmək mümkündür.

**BİBÖ – Bilirəm/İstəyirəm bilim/Öyrəndim**

BİBÖ aşağıdakı mərhələlər üzrə aparılır:

1. Problem müəllim tərəfindən elan edilir.
2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl çəkir və aşağıdakı bölmələri qeyd edir: – Bilirəm/İstəyirəm bilim/Öyrəndim
3. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur.
4. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır.
5. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.

**Məsələn: "Ehtiyatı əldən verməyək" mövzusunu tədris edərkən motivasiya mərhələsində BİBÖ üsulundan istifadə edə bilərsiniz. İctimai yerlərdə təhlükəsiz davranış qaydaları haqqında nə bilirsiniz?**

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| • Naməlum bağlama gördükdə polisə xəbər vermək.<br>• Küçədə tanımadığınız insanlarla ünsiyyət qurmamaq.<br>• Ehtiyac duyulmadıqca insanların çox toplaşdığı yerlərdən uzaq olmaq. | İctimai nəqliyyatda (qatarda, avtobusda, təyyarədə) təhlükəsizlik qaydaları hansılardır? | |



LAYİHƏ

**Klaster (şaxələndirmə)**

Müəllim tərəfindən lövhədə və ya flipçartda dairə çəkilir və onun mərkəzində yazılmış anlayışla bağlı söz və ya ifadələr söyləmək şagirdlərə tapşırılır. Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz onunla əlaqəli sözlərlə xətlər vasitəsilə birləşdirilir. Vaxt bitənə qədər mümkün qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur. Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır.

Məsələn: "Sağlamlığımızın qayğısına qalaq" mövzusunun tədrisi zamanı dərsin motivasiya mərhələsində bu üsuldan istifadə oluna bilər.




**Anlayışın çıxarılması**

Bu üsul oyun-tapmaca formasında keçirilir və şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədə dairəvi kart asır, onun arxasında şagirdlərdən tələb olunan anlayışı yazır. Kartın yazı olmayan tərəfini  şagirdlərə göstərir və gizlədilmiş anlayışların xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalayır və ya yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar.

Əgər şagirdlər anlayışı tapmaqda yenə də çətinlik çəksələr, müəllim əlavə olaraq daha bir neçə yeni xüsusiyyətlər sadalayır.

Şagirdlər öz fərziyyələrini dedikdən sonra müəllim bu tapmacanın tapılıb-tapılmamasını hamıya çatdırır və kartda yazılan sözləri açıqlayır.

Məsələn: "İnsan və ətraf mühit" mövzusunun tədrisi zamanı dərsin motivasiya mərhələsində bu üsuldan istifadə edilə bilər.






LAYİHƏ

**Müzakirə**

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar verməklə və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Müzakirədə mövzuya aid "Nə baş verdi? Nə üçün baş verdi? Bu başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Bu, düz idimi? Nə üçün?" kimi suallardan istifadə olunur.

**Məsələn:** *"Emosiyalar həyatı bəzəyir" mövzusunun tədrisi zamanı bu üsuldan istifadə edilə bilər.*

Gülarə yeddinci sinifdə oxuyurdu və çox məsuliyyətli qız idi. Evlərində qonaq olduğuna görə o, coğrafiya müəlliminin verdiyi tapşırıqları yerinə yetirə bilməmişdi. Səhər müəllim ondan dərsi soruşdu və hazırlıqsız olduğuna görə Gülarəni danladı. Gülarə pərt oldu. Müəlliminə tapşırıqları yerinə yetirməməsinin səbəbini izah edə bilmədi və ağlamağa başladı.

*Sizcə, Gülarənin vəziyyəti izah edə bilməməsinin səbəbi nə idi? Gülarənin bu haldan çıxa bilməsi üçün ona hansı məsləhətləri verə bilərsiniz? Siz bu vəziyyətdə nə edərdiniz?*

**Venn diaqramı**

Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.

*Venn diaqramından istifadə aşağıdakı mərhələlər üzrə aparılır:*

1. Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir.
2. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanır).
3. I və II dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.
4. Şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır).
5. Müqayisə olunan obyektlər təsvir edilir (fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur).
6. Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.



LAYİHƏ

**Məsələn:** *“Dövlətin idarəetmə formaları” mövzusunun tədrisi zamanı Venn diaqramından istifadə oluna bilər.*




**Ziqzaq**

Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır.

Şagirdlər dördnəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər yenidən nömrələnir. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır.

Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir.

Ekspert qrupları onlara verilən hissəni oxumalı, məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni onlara danışmalıdır.

Müəllim informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün suallar verə bilər. **Məsələn:** *“Hansı təhlükələrlə rastlaşa bilərik?”, “Ehtiyatı əldən verməyək”, “Bunları hamı bacarmalıdır”, “Cəmiyyətin həyatı” və s. mövzuların tədrisində bu üsuldan istifadə etmək olar.*

**Karusel.** Dərsdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür. Karusel kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir. **Məsələn:** *“Cəmiyyət və təşkilatlar” mövzusunun tədrisində bu üsuldan istifadə etmək məqsədəuyğundur.*

**Akvarium**

Bu üsulun həyata keçirilməsinin bir çox yolları vardır. Onlardan birini qeyd edək.

Şagirdlər 2 qrupa bölünür. Qrup bölgüsündən öncə diskussiyanın aparılması üçün müəyyən qaydalar ağ vərəqdə qeyd olunaraq asılır. Buraya bir-birinin sözünü kəsməmək, reqlamentə əməl etmək, məqsəddən uzaqlaşmamaq və s. aid ola bilər.

2 qrup dairə şəklində düzülür. Birinci qrup daxildəki dairəni, ikinci qrup isə ətrafdakı dairəni təşkil edir.



LAYİHƏ

Daxili dairənin iştirakçıları araşdırılacaq problemi müzakirə etməli və problemin xeyrinə arqumentlər gətirməlidirlər. Vaxt bitdikdən sonra müzakirənin davamını ətraf qrup aparır. Onlar isə əks arqumentlər gətirməyə çalışırlar.

Ümumilikdə isə verilən vaxt müddətində problemin müzakirəsi aparılmalıdır, hər qrup öz mövqeyini müdafiə etmək üçün öz nəticəsini elan edə bilər.

Bu üsulun tətbiqində vahid fikir əsas deyil. Əsas odur ki, şagirdlərdə müzakirə etmək qabiliyyəti formalaşdırılsın.

**Məsələn:** *Şagirdlərə "Cəmiyyətin həyatında partiyaların rolu əsasdır" fikri akvariumda müzakirəyə qoyulur. Bu zaman daxili qrupun fikirləri, müsbət faktlara əsaslanmalıdır. Onlar qoyulmuş fikri müdafiə etməli, partiyaların cəmiyyətin həyatında oynadığı rol haqqında lehinə arqumentlər gətirməlidirlər.*

*Xarici qrup isə bunun tam əksini reallaşdırmalıdır.*

## Qərarlar ağacı

- Bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.
- Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilir. 4-6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, onları "+" və ya "–" işarəsinin qarşısında müvafiq qaydada qeyd edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür.
- Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

| Problem | | | |
|---|---|---|---|
| Problemin həlli yollarının mənfi və müsbət tərəfləri | Problemin həlli yolları | | |
| | 1-ci həll yolu | 2-ci həll yolu | 3-cü həll yolu |
| | | | |
| | | | |
| Qərar: | | | |

LAYİHƏ

**İNSERT.** Bu üsul dərslikdəki mətnin aktiv fəaliyyətlə, yəni şagirdin öz münasibətini bildirərək oxunmasıdır. Şagird mövzudakı fikirlərə münasibətini qəbul edilmiş işarələrlə ("✓" – bu məlumat mənə tanış idi, "–" – bu məlumat mənim əvvəllər bildiyimi inkar edir, "+" – bu məlumat mənim üçün yenidir, "?" – bu məsələyə dair əlavə məlumat almaq istərdim) bildirir. Dərslikdəki mətn oxunduqdan sonra ümumiləşdirmələr aparılır və qeyd olunur.

| "✓" | "–" | "+" | "?" |
|---|---|---|---|
| | | | |

## ŞAGİRDLƏRİN QRUPLARA BÖLÜNMƏSİ ÜSULLARI

Fəal təlimin tətbiqi zamanı ən çox istifadə olunan forma qruplarla işdir. Bu zaman bölgünü şagirdlərin ixtiyarına buraxmaq düzgün deyildir. Çünki bu, çox vaxt müəllimin istədiyi nəticəni əldə etməsinə mane olur. Belə qruplarda əksər hallarda ya təlim nəticələri yüksək olanlar, ya təlim nəticələri aşağı olanlar, ya da dostlar yığışırlar.

Şagirdləri qruplara bölmək üçün aşağıdakı bir neçə üsulu sizə təqdim edirik.

**"Say".** Şagirdlərdən "1"-dən "5"-ə kimi saymaq xahiş olunur. Eyni rəqəmli iştirakçılar (bütün "birlər", bütün "ikilər" və s.) bir qrupda birləşirlər.

**"Püşkatma".** Müəllim şagirdlərin adlarını balaca vərəqlərdə yazır, qatlayır, paketə qoyur, qarışdırır və paketdən çıxararaq şagirdlərin sayına görə hər stolun üstünə qoyur. Kağızlar açılır və şagirdlərin adları oxunur. Həmin qayda ilə şagirdlər paketdən müxtəlif rəngli vərəqləri də çıxara bilərlər. Rənglərin sayı və hər rəngdən olan vərəqlərin sayı qrupların sayına və kiçik qrupun üzvlərinin sayına görə planlaşdırılır.

**"Sosiometrik metod".** Qrupların sayına görə bir neçə iştirakçı lövhənin qarşısına çağırılır. Hər iştirakçı özünə bir nəfər qrup yoldaşı seçir. Öz növbəsində, hər növbəti gələn şagird öz qruplarına 1 nəfər seçir.



LAYİHƏ

# İLLİK PLANLAŞDIRMANIN APARILMASINA DAİR TÖVSİYƏLƏR

**Planlaşdırma** – əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün hər bir müəllimin özünəməxsus fəaliyyət istiqamətidir. Bildiyiniz kimi, hazırkı kurikulumlar siz müəllimlərə illik planlaşdırma aparmaqda müəyyən sərbəstlik verir. Əvvəldə də qeyd etdiyimiz kimi, məhz hər bir məktəbin yerləşdiyi regiondan, onun infrastrukturundan, maddi-texniki bazasından və s. asılı olaraq Həyat bilgisi fənn kurikulumunda nəzərdə tutulmuş məzmun standartları müxtəlif cür reallaşdırıla bilər. Planlaşdırma aparılarkən yuxarıda qeyd olunanlarla yanaşı, şagirdlərin fərdi xüsusiyyətlərinin, öyrənmə tərzlərinin də nəzərə alınması olduqca vacib şərtdir. Eyni bir regionda, eyni bir məktəbdə, lakin ayrı-ayrı 7-ci siniflərdə Həyat bilgisi fənnindən dərs deyən müəllimlərin illik planlaşdırmaları müxtəlif ola bilər. Lakin bu planlaşdırmanı kor-koranə aparmaq qeyri-mümkündür. Bunun üçün müəyyən bacarıqlarınız olmalıdır. Bunlar aşağıdakılardır:

• **Məzmun standartlarına əsasən dərslikdəki tədris vahidi və mövzular üzrə dəqiqləşmələrin aparılması** üçün Həyat bilgisi fənn proqramında (kurikulumunda) nəzərdə tutulan məzmun standartlarının dərslikdə hansı mövzularda reallaşdırıldığını və bu mövzuların hansı tədris vahidlərində birləşdirildiyini müəyyən etmənizdir. Bu eyni zamanda dərsliklə tanışlıq xarakteri daşıyır və illik planlaşdırmanı düzgün apara bilməniz üçün, demək olar ki, ilkin addımdır.

• **Tədris vahidlərinin və mövzuların ardıcıllığının müəyyənləşdirilməsi** mühüm bacarıqlardan biridir. Mövzuların ardıcıllığı dedikdə sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərdə tutulur. Bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsip nəzərə alınmalıdır ki, bunun da birincisi məzmun ardıcıllığı baxımından sadədən mürəkkəbə, asandan çətinə doğru getməkdir. Bunun üçün əvvəlcə dərslikdə verilən ardıcıllığa diqqət yetirməli, bu ardıcıllıq sizi müəyyən səbəblərdən qane etmirsə (tədris ilində baş verəcək mühüm hadisələr, fənlərarası inteqrasiya və s. baxımından), özünüz mövzuların ardıcıllığını müəyyən etməlisiniz.

• **İnteqrasiya imkanlarının müəyyən edilməsi** planlaşdırma aparmaq üçün müəllimə lazım olan bacarıqlardan biridir. Həyat bilgisi özündə dörd məzmun xəttini birləşdirdiyinə görə onun bir çox fənlərlə (fizika, kimya, biologiya, tarix, coğrafiya və s.) inteqrasiyası mümkündür. Metodik vəsaitdə sizlərə təqdim olunmuş "Fənn üzrə məzmun standartlarını reallaşdırma cədvəli"ndə Həyat bilgisi məzmun standartlarının digər fənlərlə inteqrasiya imkanları göstərilmişdir. Bu inteqrasiya imkanları biz müəlliflərin məzmun standartlarını reallaşdırmamıza imkan yaradır. Lakin vəsaitdə verilmiş illik planlaşdırma cədvəlində hər bir mövzu üzrə inteqrasiya verilməsinə baxmayaraq, sinfinizdəki şagirdlərin səviyyəsini, maraqlarını, resurslarınızı nəzərə alaraq özünüz inteqrasiya imkanları müəyyənləşdirə bilərsiniz. Bunun üçün:



LAYİHƏ

*1. Nəzərdə tutulmuş standartı reallaşdırmaq üçün hansı fənnin köməyinə ehtiyac olduğunu özünüz üçün müəyyənləşdirin;*

*2. Müəyyənləşdirdiyiniz fənnin məzmun standartlarını nəzərdən keçirin. Siz həmin fənnin yalnız 7-ci sinif məzmun standartları ilə inteqrasiyasını yarada bilərsiniz;*

*3. İnteqrasiya üçün Həyat bilgisi fənni üzrə seçdiyiniz standarta müvafiq standartı müəyyənləşdirərək illik dərs planında qeyd etməniz vacibdir. Bundan sonra müəyyənləşdirdiyiniz inteqrasiya imkanına müvafiq olaraq istifadə edəcəyiniz resurslarda, şagirdlərə təqdim edəcəyiniz tapşırıqlarınızda bunu nəzərə almalısınız.*

**Məsələn:** *Həyat bilgisi fənni üzrə "1.1.1. Təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir" məzmun standartının inteqrasiya imkanlarını nəzərdən keçirək.*

Verilmiş məzmun standartından da görünür ki, bu bacarığı formalaşdırmaq üçün həm Fizika, həm də Coğrafiya fənninə istinad etmək olar.

*C. 2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin materik və okeanlara təsirini şərh edir.*

*Fiz. 2.2.1. Təbiətdəki əlaqəli sistemlərdə qravitasiya qarşılıqlı təsirinin rolunu izah edir.*

• **Əlavə resursların seçilməsi mövzunu, inteqrasiyanı müəyyənləşdirdikdən sonra aparılmalıdır.** Təbii ki, əgər "Dövlətçilik ənənələrimiz" mövzusunda reallaşdırılan "2.1.2. Dövlətin idarəetmə formalarını fərqləndirir" alt standartının Coğrafiya (C. 3.2.1. Ölkələri tipoloji xüsusiyyətlərinə görə təhlil edir) fənni ilə inteqrasiyası nəzərdə tutularsa, dərslik, iş vərəqləri ilə yanaşı, xəritədən də istifadə oluna bilər.

• **Mövzulara görə məqsədyönlü vaxt bölgüsünün aparılması** mühüm bacarıqlardan biridir. Tədris planına əsasən 7-ci sinifdə Həyat bilgisi fənninin tədrisinə ayrılan saatdan kənara çıxmamaq şərtilə daha vacib, eyni zamanda şagirdlərin çətin qavradıqları mövzulara çox, asan mövzulara isə az vaxt ayıra bilərsiniz.

***İllik planlaşdırma nümunəsi əsasında çox rahatlıqla gündəlik planlaşdırma tərtib edə bilərsiniz.***

LAYİHƏ

# İLLİK PLANLAŞDIRMA CƏDVƏLİ

| Alt standart | Tədris vahidi | Mövzu | İnteqrasiya | Resurslar | Qiymətləndirmə | Saat |
|---|---|---|---|---|---|---|
| 1.1.1. | BİZİ ƏHATƏ EDƏN MÜHİT | Hərəkət materiyanın xassəsidir | C.: 2.1.1; 2.1.3; 2.1.5. B.: 2.1.1. | Dərslik, iş vərəqləri, xəritə, paylama materialı, İKT vasitələri | Qiymətləndirmə üsulu: tapşırıqvermə, rubrik Qiymətləndirmə vasitəsi: tapşırıq, qiymətləndirmə şkalası | 1 |
| 1.1.1. | | Təbiətdəki qarşılıqlı təsirlər | Fiz.: 2.2.1. | Dərslik, flipçart, paylama materialı, İKT vasitələri, rəngli stikerlər | Qiymətləndirmə üsulu: müşahidə, rubrik Qiymətləndirmə vasitəsi: müşahidə vərəqləri, qiymətləndirmə şkalası | 1 |
| 1.1.1. | | Enerji və enerji çevrilmələri | Fiz.: 1.1.4. | Dərslik, iş vərəqləri, paylama materialı, İKT vasitələri, rəngli stikerlər | Qiymətləndirmə üsulu: tapşırıqvermə, rubrik Qiymətləndirmə vasitəsi: tapşırıq, qiymətləndirmə şkalası | 1 |
| 1.2.1. | | İnsan və ətraf mühit | B.: 1.1.2.; 4.1.1. | Dərslik, iş vərəqləri, paylama materialı, İKT vasitələri | Qiymətləndirmə üsulu: müşahidə, rubrik Qiymətləndirmə vasitəsi: müşahidə vərəqləri, qiymətləndirmə şkalası | 1 |
| 1.2.1. | | Meşələr planetimizin “ağciyər”idir | B.: 4.1.1. | Dərslik, “Yaşıl paket” DVD disk, İKT vasitələri | Qiymətləndirmə üsulu: şifahi və yazılı təqdimat, rubrik Qiymətləndirmə vasitəsi: meyar cədvəli, qiymətləndirmə şkalası | 2 |
| | | KSQ | | | Test | 1 |



LAYİHƏ

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR TÖVSİYƏLƏR

Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn və onu idarə edən vacib amildir.

Məktəbdaxili qiymətləndirmə diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (fəaliyyətin qiymətləndirilməsi), summativ (kiçik, böyük və yekun) qiymətləndirmələrdən ibarətdir.

Diaqnostik qiymətləndirmə sizin öz təlim strategiyanızı müəyyənləşdirmənizə xidmət edir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda şagird bir ümumi təhsil müəssisəsindən digərinə gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır.

Diaqnostik qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə edə bilərsiniz:

| Üsullar | Vasitələr |
|---|---|
| Tapşırıqvermə | Çalışmalar |
| Müsahibə (şifahi yoxlama) | Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək (diaqnoz qoymaq) istədiyi məsələnin yazıldığı vərəq) |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Söhbət | Şifahi söhbət |
| Müşahidə | Gündəlik müşahidə |

Bu qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, yazılı qeydlər sinif və şagird portfoliosunda saxlanılır, nəticələr barədə valideynlər, sinif rəhbəri və digər fənn müəllimləri məlumatlandırılırlar.

Formativ qiymətləndirmə qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Müəllim belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zaman-



LAYİHƏ

da uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək onlara əlavə köməklik göstərir. Bu qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən məzmun standartlarından irəli gələn təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə dərs ili ərzində müntəzəm olaraq aparılır.

Bir məzmun standartı dərslikdəki bir neçə mövzuda reallaşdığına görə həmin standartlardan çıxan qiymətləndirmə meyarları növbəti müvafiq dərslərdə də istifadə edilir. Qiymətləndirmə meyarları əsasında şagirdlərin müşahidə oluna biləcək fəaliyyəti 4 səviyyə olmaqla qruplaşdırılır.

**Məsələn:**

**Standart: 2.2.2.** Normativ hüquqi sənədlərə istinad etməklə hüquq sahələrinə dair təqdimatlar hazırlayır.

**Qiymətləndirmə meyarı:** *təqdimat hazırlama*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Normativ hüquqi sənədlərdən istifadə etməklə təqdimat hazırlamaqda çətinlik çəkir. | Normativ hüquqi sənədlərdən istifadə etməklə təqdimat hazırlayarkən səhvlərə yol verir. | Normativ hüquqi sənədlərdən istifadə etməklə təqdimat hazırlayarkən müəllimin köməyindən istifadə edir. | Normativ hüquqi sənədlərdən istifadə etməklə təqdimat hazırlayır. |



LAYİHƏ

**Formativ qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə edə bilərsiniz:**

| Üsullar | Vasitələr |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

**Özünüqiymətləndirmə**

Bu qiymətləndirmə fərdi qiymətləndirmədir. Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər.

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |

LAYİHƏ

**Cütlərlə iş zamanı qiymətləndirmə**

Bu qiymətləndirmədən cütlərlə iş zamanı istifadə etmək olar. Dərsin sonunda cütlərə aşağıda göstərilən cədvəl paylanılır. Bu cədvəldən istifadə etməklə hər bir şagird həm özünün, həm də yoldaşının fəaliyyətini qiymətləndirə bilər.

| Cütlərdə işləyən şagirdlərin adı | Fəallıq səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıq etmə | Qaydalara əməl olunma | Tapşırığın icrası zamanı müzakirə etmə | Ümumi rəyə gəlmə |
|---|---|---|---|---|---|
| Oğuz | | | | | |
| Uğur | | | | | |

**Qrup işlərinin qiymətləndirilməsi**

Qruplarla işin qiymətləndirilməsi üçün meyar cədvəli hazırlanır. Qrupların fəaliyyətini aşağıdakı meyarlara əsasən qiymətləndirmək olar.

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Tapşırığın düzgün yerinə yetirilməsi | | | | |
| Tərtibat | | | | |
| Təqdimetmə | | | | |
| Əməkdaşlıq | | | | |

Yekun (summativ) qiymətləndirmə standartların mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə qiymətləndirmə standartlarına əsasən il ərzində bölmələrin, yarım ilin və ilin sonunda həyata keçirilir. Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Summativ qiymətləndirmənin aparılması üçün yalnız test üsuluna üstünlük verməməli, aşağıdakı üsul və vasitələrdən də istifadə olunmalıdır:

LAYİHƏ

| Üsullar | Vasitələr |
|---|---|
| Yoxlama yazı işləri | Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli |
| Şifahi sorğu | Şifahi sorğu üzrə qeydiyyat vərəqi |
| Test | Test tapşırıqları |
| Tapşırıqvermə | Tapşırıq, çalışma və laboratoriya işləri |
| Yaradıcılıq və əl işləri | Fənlərə müvafiq olaraq rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri |

Kiçik summativ qiymətləndirmənin keçirildiyi gün dərsdə iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı xananı diaqonalla 2 yerə ayırmalı və onun surətində "q" (qaib) yazıb, məxrəci isə boş saxlamalısınız. Növbəti 2 həftə ərzində kiçik summativ qiymətləndirmə aparılmalı və nəticəsi məxrəcdə qeyd edilməlidir.

Şagirdin yarımillik qiyməti kiçik summativ (yarımillik ərzində keçirilən) qiymətləndirmənin nəticələri 40%, böyük summativ (yarımillik sonunda keçirilən) qiymətləndirmənin nəticələri 60% hesab olunmaqla aşağıdakı düstur əsasında çıxarılır:

$$Y \equiv \frac{ksq_1 + ksq_2 + \ldots + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ \cdot \frac{60}{100}$$

Burada, Y – şagirdin I və ya II yarımil üzrə qiymətini, $ksq_1$, $ksq_2$ ,..., $ksq_n$ – şagirdin müvafiq yarımil ərzində kiçik summativ qiymətləndirmələrinin nəticələrini, n – müvafiq yarımildə keçirilən kiçik summativ qiymətləndirmələrin sayını, BSQ isə I və II yarımildə keçirilən böyük summativ qiymətləndirmənin nəticəsini bildirir.



LAYİHƏ

## ŞAGİRDLƏRİN MÖVZULARI MƏNİMSƏMƏ ÜSULLARI

Yuxarıda da qeyd etdiyimiz kimi, illik planlaşdırılma aparılarkən məktəbin imkanları ilə yanaşı, şagirdlərin yaş xüsusiyyətlərinin, öyrənmə tərzlərinin də nəzərə alınması vacibdir. Bir sinifdə müxtəlif yollarla öyrənə bilən şagirdlər vardır. Müasir dərsdə müxtəlif təlim üsul və formalarından istifadə etmək vacibdir. Lakin bəzən öyrənmə tərzinizə üstünlük verməniz sinfinizdəki digər yollarla öyrənən şagirdləriniz üçün məqsədəmüvafiq olmaya bilər. Bunun üçün sizə ən çox üstünlük verilən öyrənmə tərzləri ilə bağlı qısaca məlumat vermək istərdik:

• ***Əyani öyrənmə tərzinə malik olanlar*** şəkillər, diaqramlar, nümayişlər, paylama materialları, filmlər, flipçartlar və s. daxil olmaqla görünən və ya müşahidə olunan vasitələrlə daha rahat öyrənirlər. Hər hansı bir tapşırığı yerinə yetirmək üçün ya təlimatı özü oxumalı, ya da yoldaşlarından birinin həmin təlimatı icra etməsini izləməsi vacibdir. Yalnız bundan sonra o, tapşırığı yerinə yetirə bilər.

• ***Eşidərək öyrənmə tərzinə malik olanlar*** məlumatın dinləmə yolu ilə ötürülməsinə üstünlük verirlər. İstənilən tapşırığı icra etmələri üçün müəllimin təlimatına qulaq asmaları vacibdir.

• ***Kinestetik (yerinə yetirərək) öyrənmə tərzinə malik olanlar*** təcrübəyə üstünlük verirlər – toxunmaq, hiss etmək, təcrübədən keçirmək və s. Kinestetik öyrənənlər tapşırığı sınaqdan keçirərək və bunu yerinə yetirəcək öyrənə bilirlər.

## MÖVZULARIN GÜNDƏLİK PLANLAŞDIRILMASINA DAİR NÜMUNƏLƏR

Tədris prosesində fəal təlim üsullarından istifadə şagirdlərin təhsilə, elmə marağını artırmaqla yanaşı, onlarda əməkdaşlıq, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətlərinin formalaşmasına imkan yaradır, dərsin strukturu qarşısında müəyyən tələblər qoyur.

Gündəlik dərs planını hazırlayarkən, ilk növbədə, öz işinizi mövzunun, standartın, məqsədin, iş forması və iş üsulunun, inteqrasiya imkanlarının, resursların müəyyənləşdirilməsi ilə başlayın. Yuxarıda sadalananların hər birinin düzgün müəyyən edilməsində alt standartlar mühüm rol oynayır. Eyni zamanda müasir dərsin hər bir mərhələsi alt standartın reallaşmasına yönəlməlidir.

Müasir dərsin strukturunu 3 hissəyə bölmək olar. Giriş hissəyə – motivasiya, tədqiqat sualı; əsas hissəyə – informasiyanın mübadiləsi, informasiyanın müzakirəsi; yekun hissəyə – nəticə və ümumiləşdirmə, yaradıcı tətbiqetmə və qiymətləndirmə aid edilə bilər.

Dərslikdə yer alan bir neçə mövzunun gündəlik planlaşdırılmasını sizə təqdim edirik.



LAYİHƏ

**Mövzu: İNSAN VƏ ƏTRAF MÜHİT**
**Alt standart:** 1.2.1. İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir.
**Məqsəd:** İnsanın təbiətə təsirini qiymətləndirir.
**İnteqrasiya:** B.: 1.1.2.; 4.1.1.
**Təlim forması:** kollektiv iş, qrupla iş
**Təlim üsulu:** beyin həmləsi, təqdimat, müzakirə, şaxələndirmə
**Resurslar:** dərslik, iş vərəqləri, elektron təqdimat, ətraf mühitin çirklənməsinə dair paylama materialı, "Yaşıl paket" DVD disk

### Dərsin gedişi

**Motivasiya:** Müəllim elektron təqdimatdan istifadə etməklə şagirdlərə fövqəladə hadisələrlə bağlı (məsələn: Sunami http://www.youtube.com/watch?v=5K6evRtp-dAw) kadrlar nümayiş etdirərək onlara aşağıdakı sualla müraciət edə bilər:

– Elm və texnikanın nailiyyətlərinə baxmayaraq, insanlar tez-tez təbii fəlakətlərin qarşısında aciz qalır. Bu təbii fəlakətlər nələrə səbəb ola bilir? – Şagirdlərin cavabları lövhədə qeyd olunur. Müəllim şagirdlərin fikirlərini təbiətdə baş verən ekoloji problemlərə yönəldir.

**Tədqiqat sualı:**

İnsanın fəaliyyəti təbiətə necə təsir göstərir?

**Tədqiqatın aparılması:**

Şagirdlər 4 qrupa bölünərək aşağıdakı tapşırıqları icra edirlər. Tapşırıqların icrası üçün şagirdlərə paylama materialı təqdim edilməlidir.

**I qrup:** Dərslikdən və paylama materialından istifadə etməklə respublikamızda havanı çirkləndirən mənbələri, çirklənmənin canlılara təsirini və çirklənmənin qarşısının alınması yollarını cədvəldə qeyd edin.

| Havanı çirkləndirən mənbələr | Canlılara təsiri | Çirklənmənin qarşısının alınması yolları |
|---|---|---|
| | | |

**II qrup:** Dərsliyə və paylama materialına əsasən Xəzər dənizinin çirklənməsinin səbəblərini, çirklənmənin canlılara təsirini və problemin həlli yollarını cədvəldə yazın.

| Çirklənmənin səbəbləri | Çirklənmənin canlılara təsiri | Problemin həlli yolları |
|---|---|---|
| | | |



LAYİHƏ

**III qrup:** Dərslikdən və paylama materialından istifadə etməklə torpağın və suyun çirklənməsi nəticəsində təbiətdə baş verən dəyişiklikləri qeyd edin.

| Çirklənmə obyekti | Çirkləndirən amillər | Çirklənmə nəticəsində təbiətdə baş verən dəyişikliklər | Problemin həlli yolları |
|---|---|---|---|
| Torpaq | | | |
| Su | | | |

**IV qrup:** Ekoloji problemlərin canlılara təsirinin qarşısını almaq üçün xəyali bir təşkilat yaradın. Təşkilatın adını, emblemini, görəcəyi işləri və əldə ediləcək nəticələri müəyyənləşdirin.

| Təşkilatın adı | Emblemi | Fəaliyyət proqramı | Nəticələri |
|---|---|---|---|
| | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hər bir qrupun işi müzakirə olunur. Hər qrup digər qrupların işinə əlavələr edir. Bu mərhələdə "Yaşıl paket" kompakt diskindən (bu diskdə ətraf mühit sahəsində mövzular cəmləşmişdir) də istifadə oluna bilər.

**Ümumiləşdirmə və nəticə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Dərsin bu mərhələsində şaxələndirmə üsulundan da istifadə mümkündür.

**Ev tapşırığı:** Ətraf mühitin çirklənməsinin canlılara mənfi təsirinin qarşısının alınması üçün respublikamızda aparılan mübarizə tədbirləri haqqında məlumat toplayın.

**Qiymətləndirmə meyarı:** *qiymətləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İnsan fəaliyyətinin təbiətə təsirinə dair nümunələr göstərir, nəticələri qiymətləndirməkdə çətinlik çəkir. | İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirərkən səhvlərə yol verir. | İnsan fəaliyyətinin təbiətə təsirini müəllimin köməyi ilə qiymətləndirir. | İnsan fəaliyyətinin təbiətə təsirini faktlara əsasən qiymətləndirir. |

**Qeyd:** *"Yaşıl paket" DVD diskini Şərqi və Mərkəzi Avropa üçün Regional Ekoloji Mərkəz hazırlamışdır.*



LAYİHƏ

**Mövzu: KONSTİTUSİYADA TƏHSİL HÜQUQU**
**Alt standart:** 2.2.1. Hüquq sahələrini fərqləndirir.
**Məqsəd:** Konstitusiyada təhsil hüququnu digər hüquq sahələrindən fərqləndirir.
**İnteqrasiya:** Üm.t.: 3.1.2.
**Təlim forması:** kollektiv iş, böyük qruplarla iş, fərdi iş
**Təlim üsulu:** beyin həmləsi, akvarium
**Resurslar:** dərslik, "Təhsil haqqında" qanundan müəyyən maddələrin çıxarışı paylama materialı kimi, hazırlanmış slayd, məktəb açılışından videogörüntü, İKT vasitələri, marker, flipçart və s.

## Dərsin gedişi

**Motivasiya:** İlk növbədə, dərsə başlayarkən şagirdlərdə idraki fəallıq yaradılmalıdır. Bunun üçün siz öncədən hazırlanmış videogörüntünü şagirdlərə təqdim edə bilərsiniz. Bu videogörüntü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və onun xanımı Birinci vitse-prezident Mehriban Əliyevanın məktəb açılışında iştirakı, şagirdlərə qayğısı, Təhsil nazirinin şagirdlərlə görüşü və s. olmalıdır. Görüntü uzun olmamalı, qısa, lakin şagirdlər üçün anlaşılacaq qədər zəngin olmalıdır. Bu zaman siz ölkə rəhbərliyinin təhsillə bağlı çıxışından bir hissənin səslənməsinə imkan yaradın. Videogörüntü nümayiş etdirildikdən sonra şagirdlərə belə sualla müraciət olunur:

*Baxdığınız bu kadrlar haqqında nə deyə bilərsiniz? Ölkə başçısının bu addımlarını necə qiymətləndirirsiniz?*

Şagirdlərin cavabları lövhədə qeyd olunur.

Şagirdlərin cavabları müxtəlif ola bilər, lakin onların diqqətini "Hər kəsin təhsil almaq hüququ vardır" fikrinə yönəltməyə çalışın.

**Tədqiqat sualı:**

Təhsil hüququmuz necə qorunur?

**Tədqiqatın aparılması:**

Tədqiqatın aparılması üçün şagirdlər, ilk növbədə, mətnlə tanış olurlar. Mətni oxuyarkən müzakirələr kollektivlə aparılır. Bu zaman şagirdlərə verilən əlavə resurslardan istifadə etmək imkanı yaradılır. Onlar təhsil hüququnun maddələrini oxuyub qurtardıqdan sonra akvarium üsuluna uyğun olaraq sinif iki dairədə yerləşdirilir: daxili dairə və ətraf dairə. Daxili dairə tədqiqat sualı ətrafında müxtəlif fikirlər səsləndirir. Təbii ki, bu fikirlər müsbət və əsaslandırılmış olmalıdır.

Ətraf dairə daxili dairənin fikirlərini qeydə alır.

Vaxt bitdikdən sonra bu işi ikinci dairə davam etdirir.



LAYİHƏ

**Məlumatın mübadiləsi və müzakirəsi:** Akvarium üsulunun tətbiqi zamanı, əslində, müzakirə və mübadilə bir yerdə reallaşdırılır. Bu zaman hər kəsin fikri nəzərə alınmalıdır.

**Ümumiləşdirmə və nəticə:** Akvarium üsulunu tətbiq edən zaman tərəflərin sual ətrafında qərarları bir-birindən kəskin fərqlənə də bilər. Amma seçdiyimiz mövzu və tədqiqat sualı eyni qənaətə gəlməyə imkan verdiyi üçün nəticədə şagirdlərin qərarı eyni olacaqdır. Azərbaycan Respublikasında "Təhsil haqqında" qanun təhsil hüququmuzun qorunmasına xidmət edir. Təhsil hüququmuz qorunur.

**Ev tapşırığı:** "Mənim təhsil hüququm" mövzusunda esse yazın.

**Qiymətləndirmə meyarı:** *fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təhsil hüququnu fərqləndirməkdə çətinlik çəkir. | Təhsil hüququnu fərqləndirərkən səhvlərə yol verir. | Təhsil hüququnu müəllimin köməyi ilə fərqləndirir. | Təhsil hüququnu asanlıqla fərqləndirir. |



LAYİHƏ

**Mövzu: SAĞLAMLIĞIMIZIN QAYĞISINA QALAQ**
**Alt standart:** 4.1.1. Sağlam həyat tərzini şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.
**Məqsəd:** Sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.
**İnteqrasiya:** B.: 2.1.2.
**Təlim forması:** kollektiv iş, qruplarla iş
**Təlim üsulu:** cədvəllərlə iş, təqdimat
**Resurslar:** dərslik, iş vərəqləri, İKT vasitələri, rəngli stikerlər, zərərli vərdişlərə dair paylama materialı

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim qutuya şagirdlərin sayına uyğun, üzərində sağlamlığın hər üç aspektini əhatə edən fikirlər yazaraq bükülmüş rəngli stikerləri qoyur. Hər şagirdə bir-bir paylayır. Şagirdlərə stikerləri lövhədə və yaxud da flipçartda çəkilmiş sxemdə müvafiq başlıq altında yapışdırmağı tapşırır.

| Mənəvi sağlamlıq | Emosional sağlamlıq | Fiziki sağlamlıq |
|---|---|---|

**Tədqiqat sualı:**
Sağlamlığın şərtlərinə əməl etməmək nə ilə nəticələnə bilər?
Sağlamlığı şərtləndirən amillərin əhəmiyyəti nədən ibarətdir?

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünərək aşağıdakı tapşırıqları icra edirlər. Tapşırıqların icrası üçün şagirdlərə zərərli vərdişlərə dair paylama materialı təqdim edilməli və yaxud da onların internet materiallarından istifadəsinə şərait yaradılmalıdır.

**I qrup:** Dərslikdən və paylama materialından istifadə etməklə cədvəli tamamlayın.

| Zərərli vərdişlər | İnsan orqanizminə təsiri |
|---|---|
| Siqaret çəkmək | |
| Spirtli içkilər qəbul etmək | |
| Azhərəkətlilik | |

**II qrup:** Dərslikdən, internet resurslarından, paylama materialından istifadə etməklə kompüter və mobil telefondan asılılığın insan orqanizminə mənfi təsiri haqqında məlumat toplayıb cədvəli tamamlayın.

| Zərərli vərdişlər | İnsan orqanizminə təsiri |
|---|---|
| Kompüterdən fasiləsiz istifadə | |
| Mobil telefondan çox istifadə | |



LAYİHƏ

**III qrup:** Elə bir şüar və simvol yaradın ki, ona baxanlar zərərli vərdişlərin insanı hansı hala saldığını təsəvvür etsin və zərərli vərdişlərə "yox" desin.

**IV qrup:** Gələcəyin elə bir tibb cihazının şəklini çəkin ki, bu cihaz insanları zərərli vərdişlərdən xilas edə bilsin. Müəyyənləşdirdiyiniz vərdişlərin həqiqətən zərərli olduğunu əsaslandırın.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hər bir qrupun işi müzakirə olunur. Hər qrup digər qrupun işinə əlavələr edir.

**Ümumiləşdirmə və nəticə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Bu mərhələdə zərərli vərdişlər əleyhinə videoçarx da nümayiş etdirilə bilər.

**Ev tapşırığı:** "Üzgüçülüyün orqanizm üçün faydası" mövzusunda təqdimat hazırlamaq.

**QEYD:** Şagirdlərin hazırladıqları təqdimat əsasında növbəti dərsdə (hansı təhlükələrlə rastlaşa bilərik) motivasiya yaradıla bilər.

**Qiymətləndirmə meyarı:** *fikrini əsaslandırma*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Fiziki sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini əsaslandırarkən səhvlərə yol verir. | Fiziki sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini tam olaraq əsaslandırmaqda çətinlik çəkir. | Fiziki sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini müəllimin köməyi ilə əsaslandırır. | Fiziki sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini misallarla əsaslandırır. |



LAYİHƏ

**Mövzu: EHTİYATI ƏLDƏN VERMƏYƏK**
**Alt standart:** 4.2.2. İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarına dair bacarıqlar nümayiş etdirir.
**Məqsəd:** İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarını fərqləndirir.
**İnteqrasiya:** Azərb.d.: 1.2.1.
**Təlim forması:** kollektiv iş, qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, təqdimat, müzakirə, şaxələndirmə
**Resurslar:** dərslik, iş vərəqləri, elektron təqdimat, paylama materialı

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim elektron lövhədə aşağıdakı mətni şagirdlərə nümayiş etdirir.

*Asif 2-ci sinifdə oxuyurdu. O, atası ilə Şəmkir rayonuna nənəsigilə gedirdi. Yolda yol nişanlarını görüb düşündü: "Görəsən, rayonda bir nəfər peyda olub bu nişanları rəngləsə, nə baş verər? Atam və mən hansı təhlükələrlə rastlaşarıq?" – deyə Asif düşüncələrə daldı.*

Şagirdlərə rəngli stikerlər paylanır. Şagirdlər Asifin nə düşünə biləcəyi ilə bağlı fikirlərini stikerlərə yazıb lövhənin kənarında asılmış flipçartda yapışdırırlar.

Şagirdlərin fikirləri qeyd edildikdən sonra onlara aşağıdakı kimi müraciət olunur:

*– Gördüyünüz kimi, yol nişanlarının olması baş verə biləcək təhlükələrin sayını azaltmış olur. Lakin qəzalar eyni zamanda başqa səbəblərdən də baş verə bilər. Bu səbəblər nələr ola bilər?*

**Tədqiqat sualı:**

İctimai nəqliyyatda hansı təhlükəsizlik qaydalarına əməl olunmalıdır?

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünərək aşağıdakı tapşırıqları yerinə yetirirlər. Bu zaman öz müşahidələrinə, dərslik və digər mənbələrə əsasən şagirdlər ictimai nəqliyyatda təhlükəsiz davranış qaydalarını araşdırırlar.

**I qrup:** Dərslikdən, paylama materialından, internet resurslarından istifadə etməklə tapşırığı yerinə yetirir.

*Xanımın babası 1994-cü ildə Bakı metropolitenində baş vermiş terror aktı zamanı həlak olmuşdu. Bu səbəbdən də Xanım metroda yanğın baş verərsə, hansı təhlükəsizlik qaydalarına əməl edəcəyini öyrənmək istəyirdi. Onun metroda yanğın və partlayışlar baş verərsə, hansı təhlükəsizlik qaydalarına əməl etməli olduğu barədə məlumat toplayın.*

**II qrup:** Məktəbinizdəki şagirdlərin ictimai nəqliyyatda təhlükəsiz davranış qaydalarına əməl etmələri üçün buklet və simvol hazırlayın.

**III qrup:** Dəmiryol qatarında və metroda təhlükəsizlik qaydalarını müqayisə edin.

**Metroda** **Qatarda**





LAYİHƏ

**IV qrup:** İnternet resurslarından və ya paylama materialından istifadə etməklə gəmidə əməl olunmalı təhlükəsizlik qaydalarına aid məlumat toplayaraq təqdim edin.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hər bir qrupun işi müzakirə olunur. Hər qrup digər qrupların işinə əlavələr edir. Bu mərhələdə əyani vəsaitlərə, şəkillərə, elektron təqdimatlara istinad olunur. Müzakirədə aşağıdakı suallardan istifadə olunur.

*– İctimai nəqliyyatda təhlükəsizliyimizi təmin edəcək davranış qaydaları hansılardır?*

*– Bu qaydaları bilmək nə dərəcədə əhəmiyyətlidir?*

*– Hamını bu qaydalara əməl etməyə necə sövq edə bilərik?*

**Ümumiləşdirmə və nəticə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Dərsin bu mərhələsində şaxələndirmə üsulundan da istifadə etmək mümkündür.

**Yaradıcı tətbiqetmə:** Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| Avtobusda | 1. Qapıya söykənməməli |
| ________ | 2. Sürücünü danışdırmamalı |
| Qatarda | 3. Elektron vasitələrdən istifadə etməməli |
| ________ | 4. Baqajda partlayışa səbəb ola biləcək maddələri aparmamalı |
| Təyyarədə | 5. Bədənin müəyyən hissəsini pəncərədən bayıra çıxarmamalı |
| ________ | |

**Qiymətləndirmə meyarı:** *fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarını sadalayır, fərqləndirməkdə çətinlik çəkir. | İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarının bir qismini fərqləndirir. | İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarını müəllimin köməyi ilə fərqləndirir. | İctimai nəqliyyatın növünə uyğun təhlükəsiz davranış qaydalarını düzgün fərqləndirir. |

LAYİHƏ

# I TƏDRİS VAHİDİ.
# SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT

## TƏDRİS VAHİDİ ÜZRƏ REALLAŞDIRILMIŞ MƏZMUN STANDARTLARI

**4.1.1. Sağlam həyat tərzini şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.**
**4.2.1. Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirir.**
**4.2.2. İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarına dair bacarıqlar nümayiş etdirir.**
**4.3.1. Fövqəladə hadisələr zamanı ilkin tibbi yardım göstərir.**



LAYİHƏ

## 1. EMOSİYALAR HƏYATI BƏZƏYİR

**Alt standart:** 4.1.1. Sağlam həyat tərzini şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.
**Məqsəd:** Emosional sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.
**İnteqrasiya:** Ə.: 2.1.2; Azərb.d.: 3.1.1.

Mövzunun əvvəlindəki mətnlə tanış olmazdan öncə şagirdlərin aşağı siniflərdən Həyat bilgisi fənnindən sağlamlığın 3 aspekti haqqında öyrəndiklərini yada salmaq olar. Bunun üçün şagirdlərin fikirlərini sağlamlığın aspektlərinə yönəltmək, onların söylədikləri fikirləri lövhədə qeyd etmək, sonra isə aşağıdakı cədvəl üzrə qruplaşdırmaq olar.

| Fiziki sağlamlıq | Emosional sağlamlıq | Mənəvi sağlamlıq |
|---|---|---|
| | | |

Qruplaşdırma aparıldıqdan sonra A blokundakı mətn oxunub müzakirə edilə bilər. Bu zaman "Niyə belə düşünürsünüz?", "Əhvali-ruhiyyəni başqa necə yaxşılaşdırmaq olar?" kimi suallar ətrafında müzakirələr aparıla bilər.

Tədqiqat "Emosional sağlamlığı şərtləndirən amillərin nə kimi əhəmiyyəti var?" sualı ətrafında aparılmalıdır.

Tədqiqatın aparılmasına C blokundakı nəzəri materialın izahı ilə başlamaq olar. Bu məqsədlə sxemdən, elektron təqdimatdan, şəkillərdən və başqa əyani vəsaitlərdən istifadə edə bilərsiniz. Bu zaman dərsi mühazirə deyil, daha çox diskussiya şəklində aparmaq vacib şərtdir. Şagirdlərin yaş xüsusiyyətlərini nəzərə alaraq stress, onu yaradan səbəblər, depressiya kimi hallardan çıxmağın yolları diqqət mərkəzində saxlanılmalı və şagirdlər düzgün istiqamətə yönəldilməlidirlər.

B blokundakı tapşırıq kollektivlə müzakirə oluna bilər. Bu blokdakı tapşırıqdan əlavə şagirdlərə Ədəbiyyat fənnindən keçdikləri əsərlərdən nümunələr və yaxud B blokundakı tapşırığa müvafiq mətnlər hazırlayıb paylama materialı kimi verə bilərsiniz. Belə halda tapşırığın icrası qruplarda yerinə yetirilə bilər. Tədqiqat üçün qruplardan birinə F blokundakı 3-cü tapşırığın icrasını da tapşıra bilərsiniz.

Dərslikdə verilən şəkillər də şagirdlərlə müzakirə olunmalıdır.

Ev tapşırığı kimi şagirdlərə F blokundakı 2-ci tapşırıq verilə bilər.

Ümumiləşdirməni aşağıdakı fikirlərlə tamamlamaq məqsədəuyğundur:

Depressiyanın əmələ gəlməsinin qarşısını almaq üçün stresli vəziyyətlərin öhdəsindən gəlməyi bacarmaq lazımdır. Sağlam həyat tərzi, müntəzəm idmanla məşğul olmaq, düzgün iş və istirahət rejimi – bütün bunlar sizə streslə mübarizə aparmağa və ruhi harmoniyanızı saxlamağa kömək edir!

LAYİHƏ

**Qiymətləndirmə meyarı:** *fikrini əsaslandırma*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Emosional sağlamlığı şərtləndirən amilləri sadalayır, əhəmiyyətini əsaslandırarkən səhvlərə yol verir. | Emosional sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini tam olaraq əsaslandırmaqda çətinlik çəkir. | Emosional sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini müəllimin köməyi ilə əsaslandırır. | Emosional sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini nümunələrlə əsaslandırır. |

https://www.youtube.com/watch?v=Ff0GeFn0tnk

## 2. SAĞLAMLIĞIMIZIN QAYĞISINA QALAQ

**Alt standart:** 4.1.1. Sağlam həyat tərzini şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.
**Məqsəd:** Sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.
**İnteqrasiya:** B.: 2.1.2.

Şagirdlər artıq sağlamlığın aspektləri, sağlam həyat tərzini şərtləndirən amillər haqqında bir sıra biliklərə malikdirlər. Bu baxımdan A blokundakı şəkil müzakirə olunmalıdır. Bu zaman istiqaməti sağlamlığın 3 aspektinə deyil, fiziki sağlamlığa yönəltmək lazımdır. Dərslikdəki şəkillərə müvafiq slayd da təqdim edə bilərsiniz. Bu zaman təqdim olunan materialda zərərli vərdişlərə aid şəkillərin verilməsi məqsədəuyğundur. Çünki burada məqsəd şagirdlərin fikirlərini məhz zərərli vərdişlərə, hərəkət azlığına, kompüter asılılığına yönəltməkdən ibarətdir. Standartın tələbinə müvafiq olaraq şagird yuxarıda sadalananların orqanizmə mənfi təsirini bilib, zərərli vərdişlərdən, hərəkətsizlikdən, kompüter asılılığından uzaq olmağın əhəmiyyətini əsaslandırmağa yönəldilməlidir.

Motivasiya yaratmaq üçün klaster üsulundan da istifadə edə bilərsiniz.




Bu zaman yönəldici suallarla şagirdləri bu qrafalarda zərərli vərdişlərdən uzaq olmaq, kompüterdən, telefondan asılı olmamaq kimi fikirlərin yazılmasına sövq etmək olar.



LAYİHƏ

Tədqiqat "Sağlamlığın şərtlərinə əməl etməmək nə ilə nəticələnə bilər? Sağlamlığı şərtləndirən amillərin əhəmiyyəti nədən ibarətdir?" sualları ətrafında aparılmalıdır.

Tədqiqata başlamazdan öncə C blokundakı mətn şagirdlər tərəfindən oxunmalı və müzakirə olunmalıdır. Bunun üçün sinifdə 4 qrup formalaşdıra bilərsiniz. C blokunda verilmiş mətni şagirdlər hissə-hissə (hər qrup bir hissəni – zərərli vərdişlər, kompüter asılılığı, hərəkətsizlik) qruplarda müzakirə edərək bu kimi vərdişlərdən uzaq olmağın əhəmiyyətini əsaslandıra bilərlər. 4-cü qrupa mobil telefondan fasiləsiz istifadənin orqanizmə ziyanı barədə tapşırıq verə bilərsiniz. Bu tapşırığın icrası üçün şagirdlərə paylama materialı verilməlidir. Şagirdlərə mətnlə işləməklə yanaşı, F blokundakı 3 və 4-cü tapşırıqları icra etmək tapşırıla bilər. Müzakirəni və ümumiləşdirməni əyani vəsaitlərə, şəkillərə, elektron təqdimatlara istinad etməklə təşkil etmək olar. Dərsin məqsədlərini nəzərə alaraq növbəti məsələlərə xüsusi diqqət yetirilməlidir:

- *Yaş xüsusiyyətlərini nəzərə alaraq zərərli vərdişlərin orqanizmə mənfi təsirini müzakirə etmək;*
- *"Fasiləsiz televizor izləmək", "Kompüter asılılığı" kimi vərdişlərin hansı fəsadlara səbəb olacağını xüsusi vurğulamaq;*
- *Sağlam həyat tərzini şərtləndirən amillərin nə dərəcədə əhəmiyyətli olduğunu faktlar və nümunələrlə əsaslandırmağa imkan yaratmaq.*

Yuxarı siniflərdə Biologiya fənnindən zərərli vərdişlərlə bağlı mövzular tədris olunacaq. Həyat bilgisi fənnindən verilən bu məlumat ilkin təsəvvür xarakteri daşıyır. Siz standartın tələbini, şagirdlərin yeniyetməlik dövrü ilə əlaqədar müşahidə etdiyiniz hər hansı digər zərərli vərdişə meylini əsas götürərək mövzunu və tapşırığı o istiqamətə də yönəldə bilərsiniz. Bunun üçün şagirdlərə paylama materialı verməyi unutmayın. Əlavə məlumatı "Həyati bacarıqlara əsaslanan təhsil" müəllimlər üçün tədris vəsaitindən əldə edə bilərsiniz.

**Qiymətləndirmə meyarı:** *fikrini əsaslandırma*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini əsaslandırarkən bir çox səhvlərə yol verir. | Sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini tam olaraq əsaslandırmaqda çətinlik çəkir. | Sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini müəllimin köməyi ilə əsaslandırır. | Sağlamlığı şərtləndirən amillərin əhəmiyyətini misallarla əsaslandırır. |

https://www.youtube.com/watch?v=HY3THCMX9j0
https://www.youtube.com/watch?v=4pjTcDS46PY



LAYİHƏ

## 3. HANSI TƏHLÜKƏLƏRLƏ RASTLAŞA BİLƏRİK?

**Alt standart:** 4.2.1. Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirir.
**Məqsəd:** Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirir.
**İnteqrasiya:** K.: 4.1.1.

A blokunda şagirdlər Həyat bilgisi fənni üzrə 6-cı sinifdə əldə etdikləri bilik və bacarıqlara əsaslanmalıdırlar. Dərsin bu mərhələsində yönəldici suallardan istifadə edə bilərsiniz. Məsələn: "Məişətdə və ictimai yerlərdə davranış qaydaları hansılardır? Elektrik avadanlıqlarından istifadə edərkən hansı təhlükəsizlik qaydalarına əməl olunmalıdır?"

Tədqiqat "Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına riayət etməmək nə ilə nəticələnə bilər?" sualı ətrafında aparılmalıdır.

B blokundakı tapşırıqların (tapşırıq ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına aiddir) fərdi şəkildə icra olunması məqsədəuyğun hesab olunmur. Tapşırıqlar qruplarda icra oluna bilər. Qruplarda işləmək, fikirlərin, mülahizələrin çoxluğu şagirdlərə doğru qərarlar qəbul etməyə imkan yaradacaq. Tapşırıqların icrası üçün şagirdlər həyatda gördüklərinə, müşahidələrinə, eşitdikləri və oxuduqlarına istinad edə bilərlər. Qruplardan biri F blokundakı 3-cü tapşırığı yerinə yetirə bilər. Bu tapşırıq şagirdlərin kimya laboratoriyasında əməl etməli olduqları təhlükəsizlik qaydalarının nə qədər vacib olduğunu onlara bir daha sübut etmiş olacaq. Bu tapşırığın icrası zamanı şagirdlər kimyadan əldə etdikləri biliklərə də əsaslana bilərlər.

Tapşırıqların icrası zamanı şagirdlərə öz fikirlərinizi yeritməyə çalışmayın.

Şagirdlər icra etdikləri tapşırığın nəticələrini cədvəl şəklində də təqdim edə bilərlər.

| İctimai yer | Təhlükəsizlik qaydaları | Qaydalara əməl etməməyin nəticələri |
|---|---|---|
| Uşaq Əyləncə Mərkəzi | | |

İnsanların çimərlik ərazisində qoyulan tələblərə, qaydalara əməl etməməsinin həyat üçün nə dərəcədə təhlükəli olduğunu və hər kəsin aşağıdakı davranış qaydalarına əməl etməsini xüsusi vurğulamaq lazımdır:

- Bələd olmadığınız su hövzələrində çimməməli
- Qadağan nişanlarına riayət etməli
- Suda zarafatlaşıb bir-birinizi batırmağa çalışmamalı
- Hava doldurulmuş ləvazimatlardan böyüklərin nəzarəti altında istifadə etməli
- Sahildən çox uzaqlaşmamalı

C blokundakı nəzəri materialla tanışlığı izahatla və yaxud müstəqil təhlillə apara bilərsiniz.

Civə dağılması ilə bağlı verilmiş materialla yanaşı, vaxtı keçmiş qida və dərmanlardan istifadə, kimyəvi maddələrlə ehtiyatsız davranmanın nəticələri və s. ilə bağlı müzakirələrə yer ayıra bilərsiniz.

Ümumiləşdirməni klaster üsulundan istifadə etməklə apara bilərsiniz. F blokundakı 2-ci tapşırıq ev tapşırığı kimi verilə bilər.



LAYİHƏ

**Qiymətləndirmə meyarı:** *nəticələri qiymətləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirərkən səhvlərə yol verir. | Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirərkən fikrini tam ifadə etməkdə çətinlik çəkir. | Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini müəllimin köməyi ilə qiymətləndirir. | Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini faktlara əsasən qiymətləndirir. |

## 4. EHTİYATI ƏLDƏN VERMƏYƏK

**Alt standart:** 4.2.2. İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarına dair bacarıqlar nümayiş etdirir.
**Məqsəd:** İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarını fərqləndirir.
**İnteqrasiya:** Azərb.d.: 1.2.1.

Mövzunun tədrisinə A blokunda verilmiş motivasiya ilə başlaya bilərsiniz. Bunun üçün bu blokda verilmiş mətni oxuya və yaxud slayd şəklində şagirdlərə təqdim edə bilərsiniz. Şagirdləri mətnin sonunda verilmiş suallar ətrafında müzakirəyə cəlb edib, onların fərziyyələrini lövhədə qeyd etmək məqsədəuyğun hesab olunur. Bu zaman şagirdlər müxtəlif fikirlər səsləndirə bilərlər. Siz şagirdlərin fikrini "təhlükəsizlik qaydalarını bilməmək" üzərində cəmləməyə çalışın.

Motivasiyanı yaratmaq üçün şagirdlərə "Hamı səyahətə çıxmağı sevir. Bu zaman hansı nəqliyyat vasitələrindən istifadə edirsiniz? Bu nəqliyyat vasitələrində hansı təhlükəsizlik qaydalarına əməl olunmalıdır?" sualları ilə müraciət edə bilərsiniz. Alınan cavabları lövhədə və yaxud flipçartda çəkilmiş sxemdə qeyd etmək məqsədəuyğundur.

Bu qeyd olunanlar şagirdlərin fərziyyələridir. Dərsin ümumiləşdirmə və nəticə mərhələsində bu fərziyyələrə qayıtmaq vacibdir.

C blokundakı mətnlə tanışlıq bir neçə üsulla aparıla bilər ("Fasiləli oxu", "Kiçik qruplarda müzakirə", "İnsert", "BİBÖ" və s.). Məlumatın müzakirəsi aşağıdakı suallar əsasında aparıla bilər:

*1) İctimai nəqliyyatda təhlükəsizliyimizi təmin edəcək davranış qaydaları hansılardır?*

*2) Bu qaydaları bilmək nə dərəcədə əhəmiyyətlidir?*

*3) Hamını bu qaydalara əməl etməyə necə sövq edə bilərik?*

LAYİHƏ

Müzakirə zamanı əyani vəsaitlərə, şəkillərə, elektron təqdimatlara istinad oluna bilər.

Şagirdlərin C blokundakı (ictimai nəqliyyatın istənilən növündə) təhlükəsizlik qaydalarından hər hansı biri ilə bağlı dərk etmədiyi məsələlərə xüsusi həssaslıqla yanaşaraq bu barədə ətraflı məlumat verə bilərsiniz.

F blokundakı 4-cü tapşırığın icrası zamanı şagirdlərin hazırladıqları bukletləri məktəbdəki digər şagirdlərə də paylaya bilərsiniz.

F blokundakı 1-ci tapşırığı şagirdlər kollektivlə birlikdə yaradıcı tətbiqetmə mərhələsində, 3-cü tapşırığı isə evdə icra edə bilərlər. Çünki bu tapşırığın icrası üçün şagirdlər gəmidə təhlükəsiz davranış qaydalarına dair məlumat toplamalıdırlar. Əgər internet resurslarından və yaxud əlavə materiallardan istifadə imkanı varsa, bu tapşırıq sinifdə də icra oluna bilər.

**Qiymətləndirmə meyarı:** *fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarını sadalayır, fərqləndirməkdə çətinlik çəkir. | İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarının bir qismini fərqləndirir. | İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarını müəllimin köməyi ilə fərqləndirir. | Fikirlərini müxtəlif nümunələrlə əsaslandırır. |

https://www.youtube.com/watch?v=tAQEBA69mL4
https://www.youtube.com/watch?v=WlAmGbRh5R4

## 5. BUNLARI HAMI BACARMALIDIR

**Alt standart:** 4.3.1. Fövqəladə hadisələr zamanı ilkin tibbi yardım göstərir.
**Məqsəd:** Fövqəladə hadisələr zamanı ilkin tibbi yardım tədbirlərini fərqləndirir.
Fövqəladə hadisələr zamanı ilkin tibbi yardım göstərir.
**İnteqrasiya:** F-t.: 4.1.3.

Mövzu üzrə reallaşdırılacaq standart sırf praktik fəaliyyət tələb etdiyindən bu mövzunun tədrisinə illik planda 2 saat vaxt ayrılmışdır. Birinci dərs saatında şagirdlər nəzəri materialla tanış olmalı, ikinci dərs saatında isə praktik fəaliyyət göstərməlidirlər.

Dərsə A blokunda verilmiş motivasiya ilə başlaya bilərsiniz. Verilmiş suala əsasən şagirdlərin cavablarının lövhədə və yaxud flipçartda qeyd olunması məqsədəuyğundur. C blokundakı mətnin öyrənilməsindən sonra şagirdlərin motivasiya mərhələsində irəli sürdükləri fikirlərin nə dərəcədə doğru olmasını müəyyənləşdirmək olar.

Motivasiyanı BİBÖ üsulundan istifadə etməklə də yarada bilərsiniz. Bu zaman şagirdlərin fövqəladə hadisələr haqqında bildiklərini cədvəlin I, öyrənmək istədikləri məsələləri II sütunda, öyrəndiklərini isə aparılacaq tədqiqat işinin nəticələrinin



LAYİHƏ

müzakirəsindən sonra ümumiləşdirmə və nəticə mərhələsində III sütunda yazmaq lazımdır. II sütunun doldurulması üçün şagirdlərin fikirlərini ilkin tibbi yardımın göstərilməsi məsələlərinə yönəltmək vacibdir.

Tədqiqat "Fövqəladə hadisələr zamanı ilkin tibbi yardım tədbirləri hansılardır? Bu tədbirlər necə həyata keçirilir?" sualları ətrafında aparılmalıdır.

C blokunda verilmiş mətni şagirdlər fasiləli oxu üsulundan istifadə etməklə mənimsəyə bilərlər. Mətndə yeni anlayışların və terminlərin olmasını nəzərə alaraq hər bir bəndin müzakirəsi zamanı plakat, elektron təqdimat və videomateriallar nümayiş etdirilə bilər. Bunun üçün məktəbin tibbi personalının da köməyindən istifadə etmək məqsədəuyğundur.

Plakatlarla yanaşı, sınıqlar, boğulma, yaralanmalar və s. kimi fövqəladə hallar zamanı ilkin tibbi yardımın necə aparılmasını şagirdlərin əyani olaraq görmələri daha vacibdir. Bunun üçün şagirdlər ilkin tibbi yardım zamanı lazım olan materiallarla (tənzif, pambıq və s.) təmin olunmalıdırlar.

Dərsin yaradıcı tətbiqetmə mərhələsində F blokundakı tapşırıqlardan istifadə etmək olar.

Növbəti dərs saatında şagirdlər cütlərdə və yaxud da qruplarda birləşərək müxtəlif fövqəladə hadisələr zamanı ilkin tibbi yardım göstərməlidirlər. Bu, rollu oyun şəklində keçirilə bilər. Bu dərs saatında da məktəbin tibbi personalının iştirakının təmin olunması məqsədəuyğundur.

Ümumiləşdirmə və nəticə mərhələsində şaxələndirmə üsulundan istifadə edərək şagirdlərə "Zərərçəkənə ilk tibbi yardım onu ölümdən xilas edə bilər. Ona görə də hər birimiz ilkin tibbi yardım göstərməyi bacarmalıyıq" fikirləri ilə tamamlamaq olar.

Şagirdlərin özlərini qiymətləndirməsinə şərait yarada bilərsiniz.

**Qiymətləndirmə meyarları:** *fərqləndirmə, ilkin tibbi yardım göstərmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Fövqəladə hadisələr zamanı ilkin tibbi yardım tədbirlərini sadalayır, hadisəyə uyğunluğunu fərqləndirməkdə çətinlik çəkir. | Fövqəladə hadisələr zamanı ilkin tibbi yardım tədbirlərinin bir qismini fərqləndirir. | Fövqəladə hadisələr zamanı ilkin tibbi yardım tədbirlərini müəllimin sualları əsasında fərqləndirir. | Fövqəladə hadisələr zamanı ilkin tibbi yardım tədbirlərini nümunələr əsasında fərqləndirir. |
| İlkin tibbi yardım tədbirlərini şərh edir, ilkin yardım göstərməyə çətinlik çəkir. | İlkin tibbi yardım edərkən səhvə yol verir. | İlkin tibbi yardımı situasiyaya uyğun müəllimin və yoldaşlarının köməyi ilə göstərir. | İlkin tibbi yardımı situasiyaya uyğun qaydada sərbəst icra edir. |

https://www.youtube.com/watch?v=gWk72N_PWq0
https://www.youtube.com/watch?v=pI_kDINCP6A



LAYİHƏ

## I TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR

**1. Uyğunluğu müəyyən edin.**

a) Halsızlıq yaradır.
b) İnsanı yaşamağa ruhlandırır.
c) Qəzəb hissi yaradır.
d) Xəstəliklərə səbəb olur.
e) Uğurlara səbəb olur.

1. Müsbət emosiyalar
2. Mənfi emosiyalar

**2. Emosional sağlamlığa müsbət təsir göstərən amillər hansılardır?**

______________________________

1) stress
2) yoldaşlarla ünsiyyət
3) musiqi dinləmək
4) qorxu
5) rəsm çəkmək
6) maraqlı kitab oxumaq
7) həyəcan
8) maraqlı filmə baxmaq

**3. Siqaretin insan orqanizminə təsirini izah edin:**

________________________________________________________________

________________________________________________________________

**4. Uyğun sözlərin altından xətt çəkin.**

1. Stress nevroza *səbəb ola bilər/səbəb olmur.*
2. Həddindən artıq yağlı qidalar *piylənməyə/boy artımına* səbəb ola bilər.
3. Kompüterdən fasiləsiz istifadə gözün inkişafına *təsir edir/əks təsir etmir.*
4. Zərərli vərdişlər yalnız *ağciyərlərə/bütün orqanizmə* təsir göstərir.
5. Spirtli içkilər baş-beyin hüceyrələrini *məhv edir/bərpa edir.*

**5. Civə dağılan zaman:**

1. əlimizlə onu yığmalı;
2. əl vurmamalı;
3. su ilə dolu bankaya yığmalı;
4. yığıb zibil qabına atmalı;
5. plastik torbaya yığıb müəyyən qurumlara təhvil verməli.

Düzgün variantları seçin: __________



LAYİHƏ

**6. Zərərli vərdişlərdən qorunmağın ailə və cəmiyyət üçün əhəmiyyətini yazın.**

______________________________________________

______________________________________________

**7. Cədvəli tamamlayın.**

| İctimai nəqliyyat növü | Təhlükəsizlik qaydaları | Qaydalara riayət etməməyin nəticələri |
|---|---|---|
| Qatar | | |
| Avtobus | | |

**8. Təyyarədə sərt eniş zamanı hansı qaydalara əməl olunmalıdır?**

1. Başı yuxarı tutmalı
2. Başı aşağı əyməli
3. Ayaqları döşəməyə dirəməli
4. Qaçmalı
5. Əlləri dizlərin üstünə qoymalı
6. Əlləri dizlərin altında çarpazlamalı

a) 1, 3, 4;  b) 2, 3, 6;  c) 4, 5, 6;  d) 2, 4, 5;  e) 1, 4, 6

**9. Aşağıdakı fikirlərdən hansıları doğrudur?**

1. Yanıq zamanı yaraya yağ çəkməli
2. Dəm qazından zəhərlənmə zamanı zərərçəkəni açıq havaya çıxarmalı
3. Bayılma zamanı süni tənəffüs verməli
4. Qabırğalar sındıqda şina qoymalı
5. Burxulan nahiyəyə sarğı qoymalı

a) 1, 4;  b) 2, 3, 4;  c) 2, 3, 5;  d) 1, 3, 5;  e) 1, 3

**10. Arterial qanaxmalar zamanı hansı ilkin tibbi yardım göstərilməlidir?**

______________________________________________

______________________________________________

______________________________________________



LAYİHƏ

# II TƏDRİS VAHİDİ.
# MƏNƏVİ HƏYAT

## TƏDRİS VAHİDİ ÜZRƏ REALLAŞDIRILMIŞ MƏZMUN STANDARTLARI

**3.1.1. Ünsiyyət qaydalarından istifadə bacarıqları nümayiş etdirir.**
**3.2.1. Müxtəlif əxlaqi keyfiyyətləri nümunələrlə əsaslandırır.**
**3.2.2. Təbiət və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirir.**
**3.3.1. Dini-əxlaqi dəyərlərin mədəniyyətlərin formalaşmasına təsirini şərh edir.**



LAYİHƏ

## 6. MƏNƏVİ BORC

**Alt standart:** 3.2.2. Təbiət və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirir.
**Məqsəd:** İnsanın təbiət və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirir.
**İnteqrasiya:** Azərb.d.: 1.2.4.; 2.2.3.

Şagirdlərdə idraki fəallığı A blokundakı mətnə əsasən yarada bilərsiniz. Bu məqsədlə A blokundakı mətn oxunmalı və Ayxanın hərəkətləri müzakirə olunmalıdır.

C blokundakı mətnin oxunması üçün fasiləli oxu üsulundan istifadə etmək olar. Müzakirələr apararkən Vətən qarşısında, eləcə də ailə, ata-ana, bacı-qardaş və s. qarşısında olan mənəvi borc haqqında şagirdlərin düşüncələrini öyrənməyə çalışın.

Tədqiqat "Təbiət və cəmiyyət qarşısında mənəvi borcu necə dəyərləndiririk?" sualı ətrafında aparılmalıdır. Şagirdlərin fikirləri dinlənilməli, ehtiyac varsa, yönəldici suallar verilməlidir.

Tədqiqatın aparılması üçün B və F blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz. Bu tapşırıqların icrası kollektivlə aparıla bilər.

Bu zaman siz verilən cavabları müzakirə etməyi də unutmayın. Müzakirələrin aparılmasında bütün sinfin iştirakını təmin etməyə çalışın. F blokundakı 3-cü tapşırığın icrası evə verilə bilər.

İşin sonunda gəlinən nəticə tədqiqat sualına cavab olmalıdır. Tədqiqat sualına verilən cavab isə, təbii ki, məqsədimizə xidmət edir. Məqsədimizin nə dərəcədə reallaşdırılması isə qoyulan meyara verilən cavabdan asılıdır.

**Qiymətləndirmə meyarı:** *dəyərləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İnsanın təbiət və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirməkdə çətinlik çəkir. | İnsanın təbiət və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirərkən cüzi səhvlər edir. | İnsanın təbiət və cəmiyyət qarşısında mənəvi borcunu müəllimin köməyi ilə dəyərləndirir. | İnsanın təbiət və cəmiyyət qarşısında mənəvi borcunu misallara əsaslanmaqla dəyərləndirir. |

LAYİHƏ

## 7. DİN VƏ MƏDƏNİYYƏT

**Alt standart:** 3.3.1. Dini-əxlaqi dəyərlərin mədəniyyətlərin formalaşmasına təsirini şərh edir.
**Məqsəd:** Dini-əxlaqi dəyərlərin mədəniyyətə təsirini şərh edir.
**İnteqrasiya:** Az.t.: 5.1.3.; Üm.t.: 5.1.1.; 5.1.3.

Bu mövzunun şagirdlər tərəfindən maraqla qarşılanması üçün A blokundakı hissəni onların diqqətinə çatdırmaq, yaxud da şagirdlərə Bakı şəhərindəki müxtəlif memarlıq üslubuna uyğun abidələrin görüntüsünü təqdim etmək olar. Onlardan bu binalar arasındakı fərqi soruşmaqla diqqəti bir istiqamətə yönləndirmiş olarsınız. Şagirdlər bu tikililərin dövr baxımından fərqini də söyləyə bilərlər. Çalışın yönləndirici sualların köməyi ilə tikililərin ucaldılmasında dinin təsirini hiss etdirmiş olasınız. Siz bu dəyərləri başqa yolla da onlara aşılaya bilərsiniz. Məsələn, geyim tərzi, mətbəx və s. Ümumilikdə şagirdin təfəkkürünü din və əxlaqın mədəniyyətə təsirinə yönəltmək lazımdır.

Məqsədə çatmaq üçün şagirdləri tədqiqata cəlb etmək lazımdır. Tədqiqat üçün isə qoyulmuş tədqiqat sualı əsasdır. Siz bu zaman şagirdlərə belə sualla müraciət edə bilərsiniz: “Din və əxlaq mədəniyyətlərə necə təsir göstərir?”

C blokunda yerləşən mətnlə şagirdləri tanış edin. Onlarla birgə mətnin oxucusuna çevrilsəniz, daha maraqlı olar. Siz bir hissəni oxuyun. Sonra həmin hissəni müzakirəyə qoyun. Növbəti hissələri şagirdlərə oxudun. Eyni işi onların da davam etdirməsini təklif edin. Hər bir hissəni oxuyan şagird həmin hissənin müzakirəsinin sanki təşkilatçısına çevrilsin. Bu zaman şagirdin üzərinə müəyyən məsuliyyət qoymuş olarsınız. O daha çevik düşünüb, müzakirələri düzgün tənzimləmək üçün çalışar. Mövzu ilə tanış olarkən siz öz inteqrasiya imkanlarınızı reallaşdırsanız, daha yaxşı nəticə əldə etmiş olarsınız. Bu mövzunu tarixlə əlaqələndirməklə yanaşı, ədəbiyyatla da əlaqə qura bilərsiniz. Şagirdlərə təklif edə bilərsiniz ki, ədəbiyyat dərslərində tanış olduqları hər hansı bir əsərdəki dini dəyərlərə aid nümunələri qeyd etsinlər. Bu, dərsin daha da canlanmasına, eləcə də şagirdin qoyulan məqsədə çatmasına imkan yaradacaqdır.

Müzakirələr zamanı görkəmli Azərbaycan kulturoloqu F.T.Məmmədovun “Mədəniyyət tarixi yaradıcı proses olub, xaos və cahillikdən biliyə, nizama, inkişafa və rifaha aparan doğru yoldur” fikrini müzakirə edə bilərsiniz.

Şagirdlərin ötən illərdən din haqqında geniş məlumatları olduğu üçün onlarla B blokunda olan suallar əsasında müzakirələr apara bilərsiniz. “Hansı səmavi dinləri tanıyırsınız?” sualına, yəqin ki, şagirdlər doğru cavablar verə biləcəklər. Onlar bu dinlər haqqında məlumat da verə bilərlər. Bu zaman siz kollektiv şəkildə, yaxud da fərdi şəkildə məlumatı şagirdlərdən ala bilərsiniz. Məsləhətdir ki, sualı qoymaqla onları canlandırmaq və keçmiş bilik və bacarıqlarını yada salmaq üçün şərait yaradasınız.

$B_2$ və $B_3$ blokundakı tapşırıqlar da kollektivlə müzakirə oluna bilər. $B_2$ blokundakı tapşırıqlarla bağlı elektron təqdimat hazırlamanız məqsədəuyğundur. Çünki şagirdlər bu barədə məlumata malik olmaya bilərlər.

F blokundakı tapşırıqlardan ev tapşırığı və yaradıcı tətbiqetmə mərhələlərində istifadə edə bilərsiniz.



LAYİHƏ

Yaradıcı tətbiqetmə mərhələsində 3-cü tapşırıq yerinə yetirilə bilər. Əgər ev tapşırığı nəzərdə tutmusunuzsa, F blokundakı sonuncu tapşırıq daha münasibdir.

**Qiymətləndirmə meyarı:** *şərhetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dini-əxlaqi dəyərlərin mədəniyyətə təsirini şərh etməkdə çətinlik çəkir. | Dini-əxlaqi dəyərlərin mədəniyyətə təsirini şərh edərkən səhvlərə yol verir. | Dini-əxlaqi dəyərlərin mədəniyyətə təsirini faktlara əsaslanmadan şərh edir. | Dini-əxlaqi dəyərlərin mədəniyyətə təsirini faktlar gətirməklə şərh edir. |

## 8. DOĞRU VƏ YANLIŞ DÜŞÜNCƏ

**Alt standart:** 3.1.1. Ünsiyyət qaydalarından istifadə bacarıqları nümayiş etdirir.
**Məqsəd:** Doğru və yanlış düşüncənin ünsiyyətə təsirini şərh edir.
**İnteqrasiya:** Ə.: 1.2.4.

A blokunda verilmiş motivasiya ilə dərsə başlaya bilərsiniz. Bunun üçün şagirdləri verilmiş şəkillər barədə fikirlərini bildirməyə, müzakirə aparmağa sövq edin. Bu məqsədlə istiqamətləndirici suallardan istifadə edə bilərsiniz:

– *Eyni bir hadisə haqqında iki insanın fərqli düşünməsinin səbəbi nədir?*
– *Müsbət və mənfi düşüncə ünsiyyətə necə təsir göstərir?*
– *Niyə belə düşünürsünüz?*

Şagirdlərin qeyd etdikləri fikirləri lövhədə yaza bilərsiniz.

Verilmiş mövzunun tərbiyəvi əhəmiyyətini nəzərə alaraq tədqiqatın kollektivdə aparılması məqsədəuyğundur.

Şagirdlər C blokundakı nəzəri materialla fasiləli oxu üsulundan istifadə etməklə tanış ola bilərlər. Bunun üçün bədii əsərlərdən nümunələrə (M.İbrahimov. "Pərvizin həyatı", xalq nağılları və s.) şəkillərə, elektron təqdimata, filmlərdən fraqmentlərə də istinad etmək olar. Təqdim edilən nümunələrdə C blokunda olduğu kimi bir hadisə ilə bağlı müxtəlif fikirlərin olması vacibdir. Şagirdlərin fikirlərini personajların doğru və yaxud yanlış düşünərək atdıqları addımlara yönəltmək lazımdır.

Tədqiqat qruplarda aparılarsa, hər qrupa müxtəlif tapşırıqlar verilə bilər. Bunun üçün bədii əsərlərdən müəyyən hissələri paylama materialı kimi şagirdlərə təqdim etmək olar.

Müzakirələrdə standartın tələbinə müvafiq olaraq mənfi düşüncənin insanlararası münasibətlərə, ünsiyyətə mənfi təsirinə xüsusi yer ayırın.

Ev tapşırığı kimi şagirdlərə F blokundakı 1-ci tapşırığın icrası tapşırıla bilər.

Ümumiləşdirməni aşağıdakı fikirlərlə tamamlamaq məqsədəuyğundur:



LAYİHƏ

“Gözünüzlə görmədiyiniz bir hadisə barədə qəti qərar verməyin. Hər şeyə şübhə ilə yanaşmayın”.

**Qiymətləndirmə meyarı:** *fikrini əsaslandırma*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Doğru və yanlış düşüncənin ünsiyyətə təsirini şərh etməkdə çətinlik çəkir. | Doğru və yanlış düşüncənin ünsiyyətə təsirini şərh edərkən səhvlərə yol verir. | Doğru və yanlış düşüncənin ünsiyyətə təsirini şərh edərkən müəllimin köməyindən istifadə edir. | Doğru və yanlış düşüncənin ünsiyyətə təsirini nümunələrlə şərh edir. |

## 9. DAVRANIŞIMIZIN MƏNƏVİ “MÜHƏRRİK”LƏRİ

**Alt standartlar:** 3.2.1. Müxtəlif əxlaqi keyfiyyətləri nümunələrlə əsaslandırır.
4.1.1. Sağlam həyat tərzini şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.
**Məqsəd:** Müxtəlif əxlaqi keyfiyyətləri nümunələrlə əsaslandırır.
Müsbət əxlaq və davranışların əhəmiyyətini əsaslandırır.
**İnteqrasiya:** Ə.: 2.1.2.




A blokunda verilmiş motivasiya ilə dərsə başlaya bilərsiniz. Bunun üçün beyin həmləsi üsulundan istifadə etmək olar. Şagirdlərin qeyd etdikləri fikirləri lövhədə yaza bilərsiniz.

Motivasiyanı klaster üsulundan istifadə etməklə də yaratmaq olar.

Şagirdlər ağıl, şüur, sevgi, istək, qəzəb, qısqanclıq və s. kimi fikirləri səsləndirə bilərlər.

C blokundakı mətnin öyrənilməsinə “Nəyə görə hesab edirsiniz ki, bu amillər davranışlara təsir göstərir?” sualından başlamaq olar.

Paraqrafın nəzəri materialı ilə tanışlıq fasiləli oxu, İNSERT, kiçik qruplarda müzakirələr və digər üsullarla aparıla bilər. Müzakirələrdə bədii əsərlərdən nümunələrə, şəkillərə, elektron təqdimata, filmlərdən fraqmentlərə (“Ögey ana”, “Şərikli çörək”, “Bir qalanın sirri” və s.) də istinad etmək olar. Şagirdlərin fikirlərini personajları bu cür hərəkətlərə sövq edən amillərin üzərində cəmləmək lazımdır.

Standartda nəzərdə tutulan məsələlərin əxlaqi keyfiyyətlər üzərində qurulması sizə şagirdlərin yaş dövrü ilə əlaqədar olaraq müşahidə etdiyiniz çatışmazlıqları da gündəmə gətirməyə şərait yaradır.



LAYİHƏ

Yaradıcı tətbiqetmə mərhələsində şagirdlər F blokundakı “Qəzəb hissinin davranışlara mənfi təsiri”nə dair tapşırığı icra edə bilərlər. Dərsin sonunda bu yazılar toplanıb evdə təhlil edilərək növbəti dərsdə bu təhlilin nəticələri müzakirə oluna bilər.

**Qiymətləndirmə meyarı:** *fikrini əsaslandırma*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Fikirlərini əsaslandırarkən səhvlərə yol verir. | Fikirlərini bildirir, lakin nümunələrlə əsaslandırmaqda çətinlik çəkir. | Fikirlərini müəllimin köməkliyi ilə əsaslandırır. | Fikirlərini faktlarla əsaslandırır. |
| Müsbət əxlaq və davranışların əhəmiyyətini əsaslandırarkən səhvlərə yol verir. | Müsbət əxlaq və davranışların əhəmiyyətini tam olaraq əsaslandıra bilmir. | Müsbət əxlaq və davranışların əhəmiyyətini müəllimin köməyi ilə əsaslandırır. | Müsbət əxlaq və davranışların əhəmiyyətini faktlarla əsaslandırır. |

## 10. DİLİN BƏLALARI: QEYBƏT VƏ İFTİRA

**Alt standartlar:** 3.1.1. Ünsiyyət qaydalarından istifadə bacarıqları nümayiş etdirir.
4.1.1. Sağlam həyat tərzini şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.
**Məqsəd:** Qeybət və iftiranın fərdi və ictimai zərərini şərh edir.
Qeybət və iftiradan uzaq olmağın əhəmiyyətini əsaslandırır.
**İnteqrasiya:** Ə.: 1.2.4.

Mövzu ilə bağlı motivasiyanı müxtəlif cür yarada bilərsiniz:

a) Şagirdlərin fikirlərini A blokundakı şərhə yönəltməklə idraki fəallıq yarada bilərsiniz.

b) Dərsə əvvəlki mövzunun tədrisi zamanı şagirdlərin evdə icra etdikləri tapşırığın müzakirəsi ilə də başlamaq olar. Müzakirələrdən yeni mövzuya keçmək üçün şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar: “Ağıl, şüur, sevgi, istək, qəzəb, qısqanclıq hislərindən başqa “dilin bəlaları” olan qeybət və iftiranın da insanlararası münasibətlərə necə təsir göstərir. Bu təsir həm müsbət, həm də mənfi ola bilər. Sizcə, nəyə görə bunları dilin bəlaları adlandırdıq? Bunlar insanlararası münasibətlərə necə təsir göstərir? Qeybət və iftiranın fərdi və ictimai zərəri nədən ibarətdir?” sualları ilə müraciət etməyiniz məqsədəuyğundur.

c) Şagirdləri kiçik qruplara ayırıb onlara aşağıdakı cədvəli də işlədə bilərsiniz:

| Ünsiyyət zamanı hansı tələbatımız ödənilir? | Ünsiyyət zamanı hansı ifadələrdən istifadə oluna bilər? |
|---|---|
| | |



LAYİHƏ

Cədvəl kollektivlə birgə də işlənilə bilər. Sonra "Bəs qeybət və iftira ünsiyyətə necə təsir göstərir?" sualı ətrafında müzakirə aparıla bilər.

Şagirdlərin fikirləri müzakirə olunaraq qeybətin, iftiranın fərdi və ictimai münasibətlərə mənfi təsirinin tam olaraq təsəvvür edilməsi üçün C blokundakı mətnə uyğun elektron resurslardan istifadə olunması məqsədəuyğundur. Bunun üçün fasiləli oxu üsulundan istifadə olunaraq müzakirələr zamanı təqdimatlara, bədii əsərlərdən nümunələrə, filmlərdən fraqmentlərə ("Böyük dayaq", "Ögey ana" və s.) istinad etmək olar.

Müzakirələrə əsasən şagirdlərlə nəticələr çıxarılaraq ümumiləşdirmə aparılmalıdır.

Müzakirələr zamanı ünsiyyətin insan həyatında böyük rolunu, ünsiyyət vasitəsilə bir çox insanların tələbatlarının ödənildiyini, qeybət və iftiranın isə bu münasibətlərə balta çaldığı xüsusi vurğulanmalıdır.

**Qiymətləndirmə meyarı:** *şərhetmə, fikrini əsaslandırma*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qeybət və iftiranın fərdi və ictimai zərərini ətraflı şərh etməkdə çətinlik çəkir. | Qeybət və iftiranın fərdi və ictimai zərərini şərh edərkən kiçik səhvlərə yol verir. | Qeybət və iftiranın fərdi və ictimai zərərini müəllimin verdiyi istiqamətə əsasən şərh edir. | Qeybət və iftiranın fərdi və ictimai zərərini faktlara əsasən şərh edir. |
| Qeybət və iftiradan uzaq olmağın əhəmiyyətini əsaslandırarkən səhvlərə yol verir. | Qeybət və iftiradan uzaq olmağın əhəmiyyətini faktlarla əsaslandırmaqda çətinlik çəkir. | Qeybət və iftiradan uzaq olmağın əhəmiyyətini müəllimin köməyi ilə əsaslandırır. | Qeybət və iftiradan uzaq olmağın əhəmiyyətini faktlarla düzgün əsaslandırır. |

## II TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR

**1. Düzgün olanları seçin.**

a) Mənəvi borc müəyyən şərtlərə tabedir.
b) Mənəvi borc şəraitdən asılı olaraq dəyişir.
c) Mənəvi borc zamanından asılı olmayaraq dəyişmir.
d) Vicdan insanın daxili tələbatıdır.
e) Əxlaq insanlar arasında münasibətləri tənzimləyir.

**2. Gənclərimizin əsgər olması hansı borcdur?**

a) vətəndaşlıq borcu   b) peşə borcu   c) vətənpərvərlik borcu
d) hərbi borc   e) yoldaşlıq borcu



LAYİHƏ

**3. Dinin mədəniyyətimizə təsirinə aid nümunələr yazın.**

__________________________________________________________

__________________________________________________________

**4. Möminə xatun türbəsi haqqında deyilənlərdən hansı doğrudur?**

☐ Üzərində Qurani-Kərimdən ayələr yazılmışdır.
☐ İspaniyada yerləşir.
☐ Memar Əcəmi Naxçıvani tərəfindən inşa edilmişdir.
☐ Xristian dininin xüsusiyyətlərini özündə əks etdirir.
☐ Hind mədəniyyətini əks etdirir.

**5. Düzgün düşüncə ünsiyyətə necə təsir göstərir? Fikirlərinizi yazın.**

__________________________________________________________

__________________________________________________________

**6. İslam mədəniyyətini özündə əks etdirən tarixi abidələr hansılardır?**

__________________________________________________________

**7. Düzgün variantların altından xətt çəkin.**

1) Hər şey *qəzəblə/ağılla* idarə olunmalıdır.
2) Mənəviyyatımızın formalaşmasında dinin rolu *yoxdur/böyükdür*.
3) Duyğularımız davranışlarmıza təsir *edir/etmir*.
4) İntiqam hissi ilə yaşamaq *qəzəbdir/iradədir*.
5) Tarixi abidələrimizin qorunması *mənəvi/maddi* borcumuzdur.

**8. Nöqtələrin yerinə açar sözlərdən uyğun gələnləri yazın.**

*şücaətli, iradəlidir, bioloji, sosial, əxlaqlı, mənəvi*

1. Bütün dinlər insanları … olmağa dəvət edir.
2. İnsan həm .., həm də … varlıqdır.
3. Tarixi abidələrimizi qoruyub saxlamaq bizim … borcumuzdur.
4. Qəzəb hissini idarə etməyi bacaran insan … olur.
5. İnsan arzuladığı bir şeyi lazım olduğu qədər istifadə etməyi bacarırsa, o ….

**9. Qeybət və iftiranın mənəvi sağlamlığa təsirini əsaslandırın.**

__________________________________________________________

__________________________________________________________

**10. Qəzəb nədir?**

__________________________________________________________

__________________________________________________________



LAYİHƏ

# III TƏDRİS VAHİDİ.
# BİZİ ƏHATƏ EDƏN MÜHİT

## TƏDRİS VAHİDİ ÜZRƏ REALLAŞDIRILMIŞ MƏZMUN STANDARTLARI

**1.1.1. Təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir.**
**1.2.1. İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir.**



LAYİHƏ

## 11. HƏRƏKƏT MATERİYANIN XASSƏSİDİR

**Alt standart:** 1.1.1. Təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir.
**Məqsəd:** Təbiətdə baş verən müxtəlif hadisələri hərəkətlə əlaqələndirir.
**İnteqrasiya:** C.: 2.1.1.; 2.1.3.; 2.1.5. B.: 2.1.1.

Şagirdlər bu mövzudan başlayaraq təbiətdə müşahidə etdikləri çoxsaylı hadisələrin başvermə səbəblərini araşdırırlar. Buna şagirdlərin əvvəlki illərdə digər fənlər üzrə əldə etdikləri biliklərə əsaslanmaqla başlamaq olar. Şagirdlərə A blokunda verilmiş tapşırığı icra etmələri tapşırıla bilər. Bu tapşırığın icrası zamanı şagirdlərin 6-cı sinif fizika kursundan öyrəndiklərini yada salmaları tələb olunur. Şagirdlərə bu tapşırıqda göstərilənləri təsnif etmək tapşırılır.

Şagirdlər qruplaşdırmanı apardıqdan sonra fasiləli oxu üsulundan istifadə edərək dərsliyin C blokunu oxutmaqla müzakirə təşkil oluna bilər.

Tədqiqat isə "Təbiətdə baş verən hadisələri hərəkətlə necə əlaqələndirmək olar?" sualı ətrafında aparılmalıdır. Tədqiqata başlamazdan əvvəl sinifdəki şagirdləri qruplara ayırmaq məqsədəuyğundur. Bunun üçün sinifdəki şagirdlərin sayına müvafiq olaraq onlara "1"-dən "5"-ə kimi (az da ola bilər) saymaq tapşırılır. Eyni rəqəmli şagirdlər: bütün "birlər", bütün "ikilər" və s. bir qrupda birləşdirilir. Tədqiqatın aparılması üçün B və F blokundakı 1-ci, 2-ci və 3-cü tapşırıqlardan istifadə etmək olar. Bu tapşırıqların yerinə yetirilməsi zamanı şagirdlər Biologiya, Fizika və Coğrafiya fənlərindən əldə etdikləri biliklərə əsasən zəlzələ, vulkan, bitkilərin havadan və torpaqdan qidalanması, ətir iyinin yayılması, su damcılarının krandan axması kimi hadisələrin hərəkətlə bağlı olduğunu izah edə bilərlər. Tapşırıqlar icra olunduqdan sonra mütləq siniflə müzakirə aparılmalıdır.

Növbəti mərhələdə C blokundakı mətnin qalan hissəsi də şagirdlər tərəfindən oxunaraq müzakirə aparılmalıdır. Bunun üçün yeri gəldikcə mətni oxuyan şagird dayandırılıb oxunulan hissə müzakirə olunmalıdır. F blokundakı 4-cü tapşırığın icrası ev tapşırığı kimi verilə bilər.

Qiymətləndirməni dərsin istənilən mərhələsində apara bilərsiniz. Həm qruplarda, həm də kollektiv müzakirələrdə iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilərlər.

**Qiymətləndirmə meyarı:** *əlaqələndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təbiətdə baş verən hadisələri uyğun hərəkətlərlə əlaqələndirməkdə çətinlik çəkir. | Təbiətdə baş verən hadisələri uyğun hərəkətlərlə müəllimin suallarına əsasən əlaqələndirir. | Təbiətdə müşahidə edilən bir neçə mexaniki, istilik, elektrik hadisələrini hərəkətlə əlaqələndirir. | Təbiətdə baş verən mexaniki istilik elektromaqnit hadisələrini hərəkətlə sərbəst əlaqələndirir. |

LAYİHƏ

## 12. TƏBİƏTDƏKİ QARŞILIQLI TƏSİRLƏR

**Alt standart:** 1.1.1. Təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir.
**Məqsəd:** Təbiətdə baş verən müxtəliftipli hadisələri qarşılıqlı təsirlə əlaqələndirir.
**İnteqrasiya:** Fiz.: 2.2.1.

Mövzuya başlamaq üçün şagirdlərin sevdikləri futbol, voleybol oyunlarında topa vurulan zərbə ilə bağlı suallar verilə bilər. Bu zaman şagirdlərin fikirləri cisimlər arasındakı qarşılıqlı təsirə yönəldilməlidir. Şagirdlərin fərziyyələri dinlənilərək lövhədə və yaxud flipçartda qeyd oluna bilər.

Tədqiqat "Təbiətdə baş verən hadisələri qarşılıqlı təsirlə necə əlaqələndirmək olar?" sualı ətrafında aparılmalıdır.

Tədqiqata B blokundakı tapşırıqla başlamaq olar. Bu tapşırığın məqsədi mətndə verilmiş qarşılıqlı təsirləri müəyyənləşdirməkdir. Bu tapşırığı şagirdlər cütlərdə yerinə yetirə bilərlər. Bu məqsədlə cütlərə rəngli stikerlər paylanıla bilər. Onlar bu stikerlərin üzərində mətndə rast gəldikləri qarşılıqlı təsirləri qeyd edərək lövhədə asılmış flipçarta yapışdırmalıdırlar. Hamı tapşırığı yerinə yetirdikdən sonra tapşırığı tez bir zamanda yoxlamaq üçün dərslikdə verilmiş mətni slayd şəklində təqdim edə bilərsiniz. Bunun üçün mətndəki qarşılıqlı təsirlərin fərqli rənglə işarələnməsi və yaxud da altından xətt çəkilməsi məqsədəuyğundur. Çünki əyani öyrənmə tərzinə malik olan şagirdlər üçün bu vacibdir.

Verilmiş tapşırığın icrasından sonra şagirdlərin fikirlərini qarşılıqlı təsirin növlərinə aid sxemə yönəltmək nəzərdə tutulur. Bu haqda geniş məlumat verməyə ehtiyac yoxdur. Sonrakı mərhələdə qarşılıqlı təsirin toxunma olmaqla və toxunma olmadan baş verə biləcəyi şagirdlərə çatdırılmalıdır. Verilmiş materialı əyani də nümayiş etdirmək olar. $B_2$ blokundakı tapşırıq kollektivlə müzakirə olunmalıdır.

Bunun üçün C blokundakı mətni şagirdlərə oxutmaq və yeri gəldikcə müzakirə etmək lazımdır.

Şagirdlər F blokunda verilmiş 2-ci tapşırığı yaradıcı tətbiqetmə mərhələsində, 1-ci tapşırığı isə ev tapşırığı kimi icra edə bilərlər.

Qiymətləndirməni dərsin istənilən mərhələsində apara bilərsiniz. Həm qruplarda, həm də kollektiv müzakirələrdə iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilərlər.

**Qiymətləndirmə meyarı:** *əlaqələndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təbiətdə baş verən müxtəliftipli hadisələri qarşılıqlı təsirlə əlaqələndirməkdə çətinlik çəkir. | Təbiətdə baş verən müxtəliftipli hadisələri müəllimin suallarına əsasən qarşılıqlı təsirlə əlaqələndirir. | Təbiətdə baş verən müxtəlif tipli hadisələrin bir qismini qarşılıqlı təsirlə əlaqələndirir. | Təbiətdə baş verən müxtəlif tipli hadisələri qarşılıqlı təsirlə sərbəst əlaqələndirir. |



LAYİHƏ

## 13. ENERJİ VƏ ENERJİ ÇEVRİLMƏLƏRİ

**Alt standart:** 1.1.1. Təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir.
**Məqsəd:** Təbiətdə baş verən hadisələri enerji çevrilmələri ilə əlaqələndirir.
**İnteqrasiya:** Fiz.: 1.1.4.

Şagirdlərdə idraki fəallıq yaratmaq üçün A blokunda verilmiş motivasiyanı onlardan birinə oxuda bilərsiniz. Bu zaman verilmiş şəkli şagirdlərlə müzakirə edərək enerji ilə nə kimi əlaqəsi olduğunu soruşmaq olar. Burada məqsəd şagirdlərin aşağı sinifdən Fizika fənnindən öyrəndikləri müxtəlif qarşılıqlı təsir və hərəkət növlərinin ümumi ölçüsü olan "enerji" və onun növləri haqqında bildiklərini yada salmalarıdır.

Dərsə klaster üsulundan istifadə etməklə də başlaya bilərsiniz. Bunun üçün flipçartda və yaxud da lövhədə "Enerjinin növləri" yazıla bilər. Şagirdlər rəngli stikerlərə enerjinin növlərini (mexaniki, daxili (istilik), elektromaqnit, atom və s.) yazıb dairənin kənarlarına yapışdırmalıdırlar.




Tədqiqat "Təbiətdə baş verən hadisələri enerji çevrilməsi ilə necə əlaqələndirmək olar?" sualı ətrafında aparılmalıdır. Şagirdlərin cavablarının lövhədə və yaxud flipçartda qeyd olunması məqsədəuyğundur.

Şagirdlərin fikirləri dinlənildikdən sonra C blokundakı mətnin fasiləli oxu və yaxud İNSERT üsullarından istifadə olunmaqla oxunması və müzakirəsi təşkil olunmalıdır. Müzakirə zamanı əyani vəsaitlərə, şəkillərə, elektron təqdimatlara (http://www.youtube.com/watch?v=G6TrpO1XTCc) istinad oluna bilər:

Tədqiqat zamanı F blokundakı 2-ci tapşırıq müvafiq olaraq qruplarda yerinə yetirilə bilər. Qruplaşma sinifdəki şagirdlərin sayına müvafiq olaraq aparıla bilər. Qruplaşmanı MV-nin əvvəlində verilmiş formalardan birinə müvafiq olaraq apara bilərsiniz. Qrupların sayına müvafiq olaraq F blokundakı 2-ci tapşırığa müvafiq tapşırıqlar (bu, şəkillərlə də ola bilər) hazırlamaqda sərbəstsiniz. Lakin bu zaman hazırladığınız tapşırıqların nəticələrinin tədqiqat sualına uyğunluğuna diqqət edin.

Tədqiqat işlərinin nəticələri ümumiləşdirilərkən aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməlidir:

- *Enerjinin növlərinin bir-birinə çevrilməsinin düzgün müəyyənləşdirilməsi*
- *Təbiətdə baş verən müxtəliftipli hadisələrin enerji çevrilmələri ilə düzgün əlaqələndirilməsi*

Ev tapşırığı kimi şagirdlərə F blokundakı 1-ci tapşırıq verilə bilər.



LAYİHƏ

Şagirdlərin qrup daxilindəki fəaliyyətləri tədqiqatın aparılmasından başlayaraq qiymətləndirilməlidir. Bunun üçün qrup qiymətləndirilməsi meyarları əsas götürülür.

Şagirdlərin təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

**Qiymətləndirmə meyarı:** *əlaqələndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təbiətdə baş verən hadisələrin enerji çevrilmələri nəticəsində baş verdiyini bilir, əlaqələndirməkdə çətinlik çəkir. | Enerji çevrilmələrini təsnif edir, təbiətdəki hadisələrlə əlaqələndirməkdə çətinlik çəkir. | Təbiətdə baş verən hadisələrin bir qismini enerji çevrilmələri ilə əlaqələndirir. | Təbiətdə baş verən müxtəliftipli hadisələri enerji çevrilmələri ilə düzgün əlaqələndirir. |

## 14. İNSAN VƏ ƏTRAF MÜHİT

**Alt standart:** 1.2.1. İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir.
**Məqsəd:** İnsanın təbiətə təsirini qiymətləndirir.
**İnteqrasiya:** B.: 1.1.2.; 4.1.1.

Mövzunun əvvəlində verilmiş materiala istinad edərək müasir dövrdə insanın ətraf mühitə təsirini şagirdlərlə birlikdə aşağıdakı üsullardan birindən istifadə etməklə araşdıra bilərsiniz.

- ***Lövhədə cədvəl qurub şagirdlərin fikirlərini bu cədvəldə qeyd edə bilərsiniz.***

| İnsanın ətraf mühitə mənfi təsiri | İnsanın ətraf mühitə müsbət təsiri |
|---|---|
| | |

- ***Şaxələndirmə üsulundan istifadə edə bilərsiniz.***






LAYİHƏ

Araşdırma aparılarkən insanın ətraf mühitə müsbət təsiri dəstəklənməli, ehtiyac varsa, bu fikirlərə əlavə olunmalıdır. Sonra şagirdlərin fikirləri insanın təbiətə mənfi təsirinə yönəldilməlidir. Tədqiqat "İnsan fəaliyyətinin təbiətə mənfi təsiri nə kimi fəsadlar törədə bilər?" sualı ətrafında aparılmalıdır. Tədqiqat sualına şagirdlərin verdikləri cavablar flipçartda və yaxud da lövhədə qeyd oluna bilər.

Növbəti mərhələdə C blokundakı nəzəri məlumat B blokuna qədər şagirdlərə oxutdurularaq müzakirə olunmalıdır. Bu zaman verilmiş şəkillərdə təsvir olunmuş hadisələr müzakirə olunmalı və E blokundakı yeni termin şagirdin anlayacağı tərzdə izah olunmalıdır. Müzakirədən sonra məktəbin imkanlarına müvafiq olaraq şagirdlərlə birlikdə "Yaşıl paket" (Ozon dəliyinin əmələ gəlməsi) və yaxud da aşağıdakı videomaterial izlənilə bilər.

http:/www.youtube.com/watch?v=1pe-KV6J-uE

Videogörüntü izlənildikdən sonra növbəti mərhələyə keçid edilməlidir.

Tədqiqat B və F blokundakı tapşırıqlarla davam etdirilə bilər. Bu tapşırıqlar eyni zamanda məlumat xarakteri daşıyır. Tapşırıqlar cütlərdə icra olunaraq qrup daxilində müzakirə olunub ümumiləşdirilə bilər. B blokundakı tapşırığın icrası zamanı şagirdlərə Xəzər dənizində yayılmış heyvan növlərini və neftlə çirklənmənin bu canlılara təsirini müəyyənləşdirmək də tapşırıla bilər. Bu tapşırığın icrası üçün şagirdlərə paylama materialı verilməlidir. F blokundakı 4-cü tapşırıq yaradıcı tətbiqetmə mərhələsində, 1-ci tapşırıq isə ev tapşırığı kimi verilə bilər.

Şagirdlərin təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

**Qiymətləndirmə meyarı:** *qiymətləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İnsan fəaliyyətinin təbiətə təsirinə dair nümunələr göstərir, nəticələrini qiymətləndirməkdə çətinlik çəkir. | İnsan fəaliyyətinin ətraf aləmdə törətdiyi dəyişiklikləri bəsit şəkildə qiymətləndirir. | İnsan fəaliyyətinin ətraf aləmə təsirini müəllimin suallarına əsasən qiymətləndirir. | İnsan fəaliyyətinin ətraf aləmdə törətdiyi dəyişiklikləri faktlara əsasən qiymətləndirir. |



LAYİHƏ

## 15. MEŞƏLƏR PLANETİMİZİN "AĞCİYƏR"İDİR

**Alt standart:** 1.2.1. İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir.
**Məqsəd:** Meşələrin məhvinin canlılara təsirini qiymətləndirir.
**İnteqrasiya:** B.: 4.1.1.

İllik planlaşdırmaya əsasən bu mövzuya 2 saat vaxt ayrılmışdır.

Birinci saat dərslikdə verilmiş mövzu əsasında nəzəri məlumatın əldə olunması, ikinci saat isə dərs-ekskursiya üçün nəzərdə tutulmuşdur.

Dərs prosesində müxtəlif təlim üsullarından, müxtəliftipli tapşırıqlardan istifadə etməklə şagirdlərdə müəyyən bilik, bacarıq və vərdişlər formalaşdırılır. Lakin elə məzmun standartları vardır ki, bu standartları yalnız sinif daxilində reallaşdırmaq mümkün deyil. İmkan dairəsində və müvafiq şərait varsa, bu kimi standartların praktik metodlardan istifadə olunmaqla reallaşdırılması məqsədəuyğundur. Bu baxımdan təbiətə ekskursiya böyük əhəmiyyət kəsb edir.

Birinci dərs saatında şagirdlərdə idraki fəallıq yaratmaq məqsədilə A blokundakı mətndən istifadə edə bilərsiniz. Verilmiş suallar ətrafında müzakirə təşkil edərək şagirdlərin fikirlərini lövhədə qeyd etmək məqsədəuyğundur.

C blokundakı nəzəri məlumat fasiləli oxu və yaxud İNSERT üsullarından istifadə olunmaqla oxunub müzakirə oluna bilər. Sonrakı mərhələdə B blokundakı tapşırıq kollektivlə icra olunmalıdır. D blokundakı şüara və E blokundakı yeni terminə diqqət yönəltməyi unutmayın. Hər bir yeni termin mütləq açıqlanmalıdır.

F blokundakı tapşırıqlar sinifdə icra oluna bilər. Bu tapşırıqların şagirdlərin sayına müvafiq olaraq cütlərdə və yaxud qruplarda yerinə yetirilməsi mümkündür. Şagirdlərə internet resurslarından və yaxud da paylama materialından istifadə imkanı yaradılmalıdır.

Şagirdlərin fəaliyyəti məqsədəmüvafiq müəyyənləşdirilmiş meyar əsasında aparılmalıdır.

Təqdimat üçün verilmiş mövzular birinci dərs saatında şagirdlərə izah edilməli, məqsəd, mənbələr, işin icra və təqdimolunma forması haqqında məlumat verilməlidir.

2-ci dərs saatı **dərs-ekskursiyadır**. Bu dərs-ekskursiya məhz meşələrə zərər vuran antropogen təsirin qiymətləndirilməsinə xidmət edir. Bu ekskursiyanı şəhər kənarındakı və yaxud məktəbə yaxın ərazilərdəki parklarda, məktəbin həyətyanı sahəsində, məktəbin yerləşdiyi regionda olan meşədə keçirmək mümkündür.

İşə başlamazdan öncə ekskursiyanın aparılması haqqında şagirdlər təlimatlandırılmalı, ekskursiyanın mövzusu və məqsədi onlara aydınlaşdırılmalıdır. Ekskursiya zamanı şagirdlər müxtəliftipli antropogen təsirləri müşahidə etməlidirlər. Bu zaman insanların meşələrə birbaşa (tonqal yandırılması, heyvanların məhv edilməsi, ağacların qırılması və s.) və dolayı yolla (yuvaların dağıdılması, qarışqaların məhv



LAYİHƏ

edilməsi) təsiri qeyd olunmalıdır. Əldə edilən məlumatlardan təqdimatların hazırlanmasında istifadə oluna bilər.

Bu məqsədlə şagirdləri üçnəfərlik qruplarda qruplaşdıra bilərsiniz. Bu qruplar "botaniklər", "zooloqlar" və "ekoloqlar" adlandırıla bilər. Sinifdəki şagirdlərin sayından asılı olaraq eyniadlı qrupun sayı 2 və yaxud da qrupdakı şagirdlərin sayı artırıla bilər. "Botaniklər" bitkilərin ümumi vəziyyətini (ağacın gövdəsində yazıların yazılması), "zooloqlar" heyvanlar aləminə vurulan zərəri, "ekoloqlar" ekosistemin tarazlığı üçün yaranan təhlükəni müəyyənləşdirməlidirlər.

Hər bir qrupun apardığı tədqiqatın nəticələri barədə təqdimat və yaxud referat hazırlanması məqsədəuyğundur. Şagirdlərə hazırlanacaq təqdimatda (təqdimat slayd, albom şəklində ola bilər) getdikləri ərazinin planını çəkmək (şagirdlər coğrafiya fənnindən bu bacarıqlara malikdirlər), öyrəndikləri ərazidəki problemlərin qarşısının alınması üçün təkliflərin, eyni zamanda dövlət tərəfindən meşələrin qorunması məqsədilə həyata keçirilən tədbirlər haqqında məlumatın əks olunması tapşırıla bilər. Şagirdlər dövlət tərəfindən meşələrin qorunması məqsədilə həyata keçirilən tədbirlər haqqında məlumatı yalnız internet saytlarından deyil, eyni zamanda "Ayna" uşaq ensiklopediyasından və digər mənbələrdən əldə edə bilərlər.

Şagirdlər tərəfindən hazırlanmış materiallar növbəti dərs saatında (KSQ-nin keçirilməsindən öncə) dinlənilməli və qiymətləndirilməlidir.

Şagirdlərin hazırladıqları təqdimat aşağıdakı meyarlar üzrə qiymətləndirilməlidir.

| Meyarlar | Hə | Yox |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvləri iştirak edir | | |
| Təqdimatın düzgünlüyü | | |
| Təqdimat edənin fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Dövlət tərəfindən meşələrin qorunması məqsədilə həyata keçirilən tədbirlər barədə düzgün məlumatın əks olunması | | |
| Təqdimatın hazırlanmasında sistemliliyin gözlənilməsi | | |

LAYİHƏ

## III TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR

**1. Buz üzərində hərəkət torpaq yoldakı hərəkətdən daha sürətli olur. Bunun səbəbi buz üzərində.....**

a) sürtünmənin az olması

b) sürtünmənin olmaması

c) sürtünmənin çox olması

d) havasızlıq

e) havanın sıx olması

**2. Aşağıdakıları materiyanın hansı xassəsi ilə əlaqələndirmək olar?**

Yarpaqların işığa doğru yönəlməsi, çəkilmə və qabarma, atmosfer hadisələri

________________________________________________

**3. Düzgün variantların altından xətt çəkin.**

- Dəmirlə maqnit arasında qarşılıqlı təsir *mövcuddur/mövcud deyil.*
- Çantanı qaldırmaq üçün müəyyən qüvvə *lazımdır/lazım deyil.*
- İnsan orqanizmində gedən fizioloji proseslərə *enerji/üzvi maddə* sərf olunur.
- Yeriyən zaman Yerin cazibə qüvvəsi bizim hərəkətimizi *asanlaşdırır/çətinləşdirir.*
- *Qeyri-üzvi/üzvi maddələrin* parçalanması zamanı enerji yaranır.

**4. Verilmiş qarşılıqlı təsirləri qruplaşdırın:**

1. Toxunma olmaqla
2. Toxunma olmadan

- maqnitlə – dəmir
- küləklə – bitki
- əllə – şar
- iynə – maqnit
- ayaq – top



LAYİHƏ

**5. Aşağıdakılara əsasən enerji çevrilmələrini müəyyənləşdirin:**

*Xalçanı təmizlədin* ______________________________

*Maşının günəş şüaları altında temperaturu dəyişdi* ______________

*Sərinkeşin sərinlətməsi* ______________________________

*Meşədə gəzdin* ______________________________

*Dərsdən sonra voleybol oynadın* ______________________

*Elektrik lampasını yandırdın* ________________________

**6. Düzgün(d) və səhv(s) olanları verilmiş boş çərçivələrdə qeyd edin.**

☐ Elektrik mühərriklərində mexaniki enerji elektrik enerjisinə çevrilir.

☐ Dəmiri çəkiclə vurduqda mexaniki enerji istilik enerjisinə çevrilir.

☐ Qidanın tərkibində olan kimyəvi enerjinin bir qismi istilik enerjisinə çevrilir.

☐ Şüalanma zamanı istilik enerjisi işıq enerjisinə çevrilir.

☐ İnsan orqanizmində kimyəvi enerji elektrik enerjisinə çevrilmir.

**7. Meşələrin məhvi hansı fəsadlara səbəb ola bilər?**

______________________________________________________

______________________________________________________

**8. Aşağıdakılardan hansı ekoloji problem deyil?**

a) yaşıllıqların azalması

b) ozon qatının dağılması

c) suyun çirklənməsi

d) yaşıllıqların artması

e) istixana effekti

**9. Aşağıdakılardan hansı insan fəaliyyəti nəticəsində baş vermişdir?**

1) ozon təbəqəsinin dağılması

2) oksigenin sintezi

3) səhraların yaranması

LAYİHƏ

4) qlobal istiləşmə
5) suyun mazutla çirklənməsi
6) radiasiyanın yaranması
7) meşələrin azalması

a) 1, 3, 6; b) 2, 4, 7; c) 4, 5, 6; d) 3, 5, 7; e) 1, 5, 7.

**10. Əgər neft tankerindəki yanacaq dənizə axarsa, dənizin ekosistemində hansı fəsadların yaranmasına səbəb ola bilər? Fikrinizi yazın.**

___

___

___



LAYİHƏ

# IV TƏDRİS VAHİDİ. CƏMİYYƏTİN TƏLƏBATI

## TƏDRİS VAHİDİ ÜZRƏ REALLAŞDIRILMIŞ MƏZMUN STANDARTLARI

**2.1.1. Cəmiyyətin idarəetmə formalarını fərqləndirir.**
**2.1.2. Dövlətin idarəetmə formalarını fərqləndirir.**
**2.2.1. Hüquq sahələrini fərqləndirir.**
**2.2.2. Normativ hüquqi sənədlərə istinad etməklə hüquq sahələrinə dair təqdimatlar hazırlayır.**
**2.3.1. Əmək və onun növlərinin iqtisadi proseslərdəki rolunu şərh edir.**

LAYİHƏ

## 16. DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİMİZ

**Alt standart:** 2.1.2. Dövlətin idarəetmə formalarını fərqləndirir.
**Məqsəd:** Azərbaycan ərazisində tarixən mövcud olan dövlətləri fərqləndirir.
**İnteqrasiya:** Az.t.: 3.1.2; Üm.t.: 3.1.2.

Bu dərsin reallaşdırılması asan olduğu qədər də çətin ola bilər. Asanlığı o baxımdan olacaqdır ki, şagirdlər tarix dərslərindən tarixi Azərbaycan torpaqlarında yaranmış bir çox dövlətlər haqqında məlumatlıdırlar.

Eyni zamanda şagirdlər tədqiqata cəlb olunduqları zaman qədim dövlətlərin idarəetmə formalarını fərqləndirməkdə çətinliklə üzləşə bilərlər. Onlara bəzi məlumatları xatırlamaları üçün müəyyən vasitələrlə kömək etmək lazımdır. Bu baxımdan bir az diqqətli olub şagirdin bilik və bacarıqlarını üzə çıxarmaq üçün düzgün yönləndirici suallardan istifadə etməyiniz tövsiyə olunur. Motivasiyanı mətnin A blokunda verilən hissə ilə də başlamaq olar. Alternativ olaraq siz şəhərimizin (regiondakı) müxtəlif abidələrinin görüntüsündən slaydlar hazırlayıb şagirdlərə təqdim edə bilərsiniz. Əsas məqsəd şagirdi problemi araşdırmağa cəlb etmək və bu araşdırmanı apararkən təfəkkürünün motivləşməsini, bir növ, canlanmasını həyata keçirməkdir. Bu zaman şagirdləri diskussiyaya cəlb etmək lazımdır. Onlara "Dövlətimiz haqqında nə bilirsiniz? Yaxud da dövlətimiz nə vaxt yaranıb? Ölkəmizdə dövlətçiliyimizin tarixi qədimdirmi? Tarix dərslərindən öyrəndiyiniz hansı Azərbaycan dövlətlərinin adlarını sadalaya bilərsiniz?" kimi suallarla müraciət etmək olar. B blokuna aid hissə ilə tanış olan şagirdləri müzakirəyə cəlb etmək üçün onları C blokundakı sual və tapşırıqların icrasına istiqamətləndirə bilərsiniz. Tədqiqatın aparılması zamanı siz şagirdlərə Azərbaycan ərazisində mövcud olan dövlətlərin xəritəsini paylamaqla yanaşı, onlara dövlətlər haqqında qısa məlumatlar versəniz, daha yaxşı olar. Bununla şagirdlərə kömək etmiş olarsınız. Məktəbinizin sinif otağında internet və kompüterdən istifadə imkanları varsa, o zaman bu işin araşdırılmasında axtarış sistemləri ən yaxın köməkçi ola bilər. Bu məqsədlə şagirdlərə açar söz kimi dövlətlərin adlarını vermək kifayət edər. Şagirdlər tədqiqatlarını reallaşdırmaq üçün əla imkana sahib olacaqlar. F blokunda verilən tapşırıqlar sizin şagirdlərə verəcəyiniz tapşırıq ola bilər. Şagirdlərin dövlətlər haqqında topladıqları materiallar onların Venn diaqramında müqayisə aparmasına imkan yarada bilər. Bu işi sinfi qrupa bölməklə, yaxud da kollektiv şəkildə apara bilərsiniz. Venn diaqramı vasitəsilə Azərbaycan Respublikasının və Manna dövlətinin, yaxud da Manna və Səfəvi dövlətlərinin oxşar və fərqli tərəflərini tapa bilərlər.

Nəticədə şagirdlər həm ölkəmizin qədim tarixi köklərə malik olduğunu, həm də onların fərqli cəhətlərini aşkar etmiş olacaqlar. Bu baxımdan da məqsədəuyğun olaraq şagirdlərin qiymətləndirilməsi fərqləndirmə bacarıqlarına görə müəyyən edilməlidir.



LAYİHƏ

**Qiymətləndirmə meyarı:** *fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İdarəetmə formalarını müəyyən etməkdə çətinlik çəkir. | Dövlətlərin idarəetmə formalarını qismən fərqləndirir. | Dövlətin idarəetmə formalarını fərqləndirərkən müəllimin köməyindən istifadə edir. | Tarixən mövcud olan dövlətlərin idarəetmə formalarını nümunələr gətirməklə fərqləndirir. |

## 17. DÖVLƏTİN İDARƏETMƏ FORMALARI

**Alt standart:** 2.1.2. Dövlətin idarəetmə formalarını fərqləndirir.
**Məqsəd:** Müxtəlif idarəçilik formasını fərqləndirir.
**İnteqrasiya:** Az.t.: 3.1.2.; Üm.t.: 3.1.2.

Bu mövzunu başlayarkən A blokundakı hissəni şagirdlərin diqqətinə çatdırmaq, yaxud da elektron vəsait hazırlamaqla ya slayd, ya da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki görüntüsündən bir hissəni nümayiş etdirmək olar. Videogörüntü bitdikdən sonra yönləndirici suallar verməklə şagirdlərin cavablarını lövhədə qeyd edin. Ölkənin idarəçilik formasının respublika olduğu cavabını aldıqdan sonra, onların diqqətini tədqiqat sualına cəlb edin. Dövlətlər necə idarə olunur?

İNSERT üsulundan istifadə etməklə şagirdləri mətnlə tanış edə bilərsiniz. Bu zaman onların ötən ildə öyrəndiklərini xatırlatmaq olar. Mövzu ilə tanış olan şagirdləri Venn diaqramında müqayisəli araşdırmaya cəlb etməklə işin səmərəli olmasına şərait yaradar. Venn diaqramını kollektiv və ya qruplara təqdim etməklə də reallaşdırmaq olar. Dərsin hər bir mərhələsində şagirdlərin qiymətləndirilməsi reallaşdırılmalıdır.

Siz nəticə və ümumiləşdirmə aparmamışdan öncə müxtəlif ölkələrin idarəetmə üsulundan, məsələn, Türkiyə, İngiltərə, Fransa, Almaniya, ABŞ-a və digər dövlətlərə aid slayd göstərə bilərsiniz. Bu işi fərqli istiqamətdə də reallaşdırmaq olar. Siz şagirdlərlə birgə tarix dərslərindən tanıdıqları ölkələrin indiki və keçmiş idarəçilik formalarını müəyyən edib onları cədvəlləşdirə bilərsiniz. Məsələn:

| Ölkə | Keçmişdə | İndiki zamanda |
|---|---|---|
| Misir | | |
| Hindistan | | |
| Çin | | |
| Fransa | | |



LAYİHƏ

F blokunda olan 1-ci, yaxud da 3-cü tapşırıqlar ev tapşırığı kimi istifadə edilərsə, daha yaxşı olar.

Qiymətləndirmə apararkən şagirdlərin respublika, monarxiya və digər idarəçilik formalarını fərqləndirmə bacarığı əsas tutulmalıdır.

**Qiymətləndirmə meyarı:** *fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dövlətləri tanıyır, onların idarəçilik formalarını fərqləndirməkdə çətinlik çəkir. | Dövlətin idarəetmə formalarını fərqləndirərkən ciddi səhvlərə yol verir. | Dövlətin idarəetmə formalarını sualların köməyi ilə fərqləndirir. | Dövlətin idarəetmə formalarını asanlıqla fərqləndirir. |

## 18. CƏMİYYƏTİN HƏYATI

**Alt standart:** 2.1.1. Cəmiyyətin idarəetmə formalarını fərqləndirir.
**Məqsəd:** Cəmiyyət həyatını idarə edən sahələri fərqləndirir.
**İnteqrasiya:** Üm.t.: 3.1.1.

Bu mövzuya başlayarkən şagirdlərlə daha çox tarix dərslərindən tanış olduqları mövzulara inteqrasiya etmək olar. Motivasiya zamanı A blokundakı suallardan istifadə edərək şagirdlərin diqqətini araşdıracaqları problemə doğru yönləndirmək olar. Şagirdlərə A blokunda verilmiş tapşırığı icra etmələri tapşırıla bilər. Suallara cavab vermək üçün onlara bir neçə dəqiqə vaxt verilsə, daha düzgün olar. Şagirdlərin verdiyi cavablar lövhədə, yaxud da flipçartda qeyd olunarsa, daha məqsədəuyğun hal olar. Cavablar alındıqdan sonra fasiləli oxu üsulundan istifadə edərək mətni şagirdlərə oxutdura bilərsiniz. Hər oxunan abzasın müzakirəsi aparılarsa, şagird üçün daha səmərəli nəticə göstərər.

Tədqiqat "Cəmiyyətin həyatı necə idarə olunur?" sualı ətrafında aparılmalıdır. Bunun üçün də şagirdləri tədqiqata cəlb etməklə müəyyən tapşırıqlar verilməlidir. Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü apararkən daha çevik və maraqlı vasitələrə əl atmaq şagirdlərin marağına səbəb olar. Eyni zamanda vaxta qənaət etmiş olarsınız. Bu işdə rəngli stikerlər köməyinizə çata bilər. Bunun üçün şagirdlərə rəngli kartlardan birini seçmək təklif olunur. Bu mövzunun reallaşdırılması üçün daha yaxşı olardı ki, yaşıl, narıncı, mavi və çəhrayı rənglərdən istifadə edəsiniz. Bu rənglər məqsədli şəkildə verilmiş olacaq. Qrupu 4 yerə bölməklə onların adını mətndə olan ifadələrlə adlandırmaq olar. **İqtisadi həyatı** – *yaşıl*, **sosial həyatı** – *mavi*, **siyasi həyatı** – *narıncı* və **mənəvi həyat** adlandırılan



LAYİHƏ

qrupu isə *çəhrayı* rənglə ifadə edin. Tədqiqatın aparılması üçün B blokundakı, yaxud da F blokundakı tapşırıqlardan istifadə etmək olar. Çalışmaq lazımdır ki, seçdiyiniz tapşırıqlar qruplara qoyduğunuz adlarla bağlılıq yaratsın. Əslində, sonda hər bir qrup öz qrup adına xidmət edərək onun haqqında tapşırığı həll etməklə fikirlər söyləmiş olur. Bu tapşırıqların reallaşdırılması şagirdlər üçün bir o qədər də çətin olmayacaq. Çünki qoyulan suallar haqqında şagirdlər əvvəlki illərdə keçdikləri Həyat bilgisi fənnindən, eləcə də tarix və ədəbiyyat dərslərindən müəyyən qədər məlumatlıdırlar. Hazırlanmış cavablar təqdim olunduqdan sonra hər bir qrupun işi müzakirə edilməli və qiymətləndirmələr aparılmalıdır. Nəticələrin çıxarılmasında şagirdin iştirakı vacibdir.

F blokundakı 5-ci tapşırıq ev tapşırığı kimi verilə bilər. Yaxud da sinifdə reallaşdırılmayan tapşırıqlardan biri şagirdlərə ev tapşırığı ola bilər. Lakin veriləcək tapşırıq yarım qalmış problemi həll etmək üçün deyil, şagirdlərin bilik və bacarıqlarının inkişafı üçün şərait yaratmalıdır.

Qiymətləndirmənin reallaşdırılması, əslində, bütün dərs boyu aparılmalıdır. (Dərsin istənilən mərhələsində reallaşdırmanı apara bilərsiniz.) Qiymətləndirmə məqsədəuyğun meyar əsasında reallaşdırılmalıdır.

**Qiymətləndirmə meyarı:** *fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Cəmiyyət həyatının sahələrini fərqləndirməkdə çətinlik çəkir. | Cəmiyyət həyatının sahələrini fərqləndirərkən bəzi səhvlərə yol verir. | Cəmiyyət həyatının sahələrini müəllimin köməyi ilə fərqləndirir. | Cəmiyyət həyatının sahələrini sərbəst fərqləndirir. |

LAYİHƏ

## 19. CƏMİYYƏT VƏ TƏŞKİLATLAR

**Alt standart:** 2.1.1. Cəmiyyətin idarəetmə formalarını fərqləndirir.
**Məqsəd:** Cəmiyyətin həyatında təşkilatların rolunu fərqləndirir.
**İnteqrasiya:** Üm.t.: 3.1.1.

A bloku şagirdlərə beyin həmləsi üsulunu tətbiq etmək üçün sizə yardımçı olacaq. Bu zaman şagirdlər yeni anlayışlara da rast gələ bilər. Məsələn, onlara həmkarlar təşkilatı və ya qeyri-hökumət təşkilatları bir qədər mürəkkəb görünə bilər. Amma bunun üçün tezarusdan, yəni yeni anlayışların izah edilməsindən istifadə etmək olar. Yaxud da şagirdləri işə cəlb etməklə onların bunlar haqqında dərsin sonunda məlumatlı olmasına imkanlar yaratmaq olar. Bu zaman yeni anlayışlar ağ vərəqə yazılır. Ola bilər ki, onun izahı dərsin gedişində aydınlaşa bilsin. B blokunda olan materiallar fasiləli oxu üsulu ilə reallaşdırılır. Şagirdlər mətni oxuduqda onlara aydın olmayan məqamlar üzərində dayanıb müzakirələr aparmaq olar.

Tədqiqatı "Cəmiyyətin idarə olunmasında təşkilat və qurumların rolu nədən ibarətdir?" sualı ətrafında aparmaq olar.

Şagird idarəçilik haqqında məlumatlıdır. Amma cəmiyyətin həyatında müxtəlif təşkilatların, qurumların, partiyaların rolunun əsas olduğunu bilməyə bilər. Bunun üçün şagirdlərin işə cəlb olunması mütləqdir. Bu işdə sizə F blokunda verilmiş tapşırıqlar yardımçı olacaqdır. Sinfin qrupa bölünməsində müxtəlif təşkilat və partiyaların adı və simvollarından istifadə etmək olar. Məsələn, bir qrup YAP-ın, digər qrup Gənclər təşkilatının, digəri BMT-nin, qalan qismi isə Qızıl Aypara Cəmiyyətinin adı və işarəsi ilə bölünə bilər.

Burada məqsəd şagirdlərdə bu qurumlar və təşkilatlar haqqında fikir formalaşdırmaqla onların cəmiyyətin həyatındakı rolunu müəyyənləşdirməkdir.

Qiymətləndirmə məqsədəuyğun müəyyənləşdirilmiş meyar əsasında aparılır.

**Qiymətləndirmə meyarı:** *fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Cəmiyyətin həyatında təşkilatların rolunu çətinliklə fərqləndirir. | Cəmiyyətin həyatında təşkilatların rolunu fərqləndirərkən müəyyən səhvlərə yol verir. | Cəmiyyətin həyatında təşkilatların rolunu fərqləndirərkən müəllimin köməyindən istifadə edir. | Cəmiyyətin həyatında təşkilatların rolunu düzgün və sərbəst fərqləndirir. |

LAYİHƏ

# 20. HÜQUQ SAHƏLƏRİ

**Alt standart:** 2.2.1. Hüquq sahələrini fərqləndirir.
**Məqsəd:** Müxtəlif hüquq sahələrini fərqləndirir.
**İnteqrasiya:** Üm.t.: 3.1.2.

A blokunda verilmiş hissə şagirdlər üçün motivasiya ola bilər. Şagirdlərə bu hadisəni özünüz hekayə şəklində də nəql edə bilərsiniz. Yaxud da onlara bu hissəni oxumağı tapşırmaq olar. A blokundakı hissə oxunduqdan sonra şagirdləri müzakirəyə dəvət edin. Onların söylədikləri fikirləri, təklifləri, yaxud da adları lövhədə və ya flipçartda qeyd edərək hüququn sahələrinə yönləndirməyə çalışın.

Onların fikirlərini aldıqdan sonra hüquq sistemini özündə birləşdirən 3 elementi lövhədə cədvəlləşdirərək göstərin. Məsələn:

| Hüquq sahəsi | Hüquq institutu | Hüquq norması |
|---|---|---|
| | | |
| | | |

Şagirdlərin fərziyyələrini dinlədikcə xanaları doldurmaq olar.

Növbəti cədvəliniz hüquq sahələrinə aiddir. Bunun üçün aşağıdakı cədvəli tərtib edin. Şagirdlər hüquq sahələrini sadaladıqca əvvəlcə cədvəlin birinci sütununu, sonra isə ikinci sütununu doldurur.

| Hüquq sahələri | |
|---|---|
| 1. Konstitusiya hüququ | Konstitusiyaya görə |
| 2. Əmək hüququ | İşə görə |
| 3. Mülkiyyət hüququ | Mala-mülkə görə |

Şagirdlərin fikri alındıqca siz xanaları doldurmaqla sonuncu cədvəlin formasını almış olacaqsınız. Hüquq sahələri və onların funksiyalarını şagirdin həyatda gördüyü nümunələrdən çıxış edərək cavab verməsi ilə doldurularsa, daha yaxşı olar. Bu başqa bir istiqamətdə də reallaşa bilər. Şagird hüquq sahələrinin adını söylədikdən sonra məntiqi mülahizələr irəli sürməklə də növbəti hissəni doldura bilər. Təbii ki, bu fikri söyləmək üçün sizin yönləndirmə bacarığınız əsasdır. B bloku ilə tanış olan şagirdləri qrup işinə də cəlb etmək olar. Bu zaman siz F blokundakı tapşırıqlardan istifadə etmək imkanına maliksiniz.

LAYİHƏ

Bu mövzunun tədrisini 2 saat müddətində reallaşdırmaq daha münasib olar. Çünki şagirdlər üçün hüquq sahələrinin hamısını bir dərsdə araşdırmaq çətin ola bilər. Siz onlara növbəti dərs üçün tapşırıqlar verə bilərsiniz. Bu zaman Siz F blokunda yerləşən 2 və 4-cü sualları şagirdlərə tapşıra bilərsiniz. Yaxud da sizin sinif üçün çətin görünən hər hansı bir hüquq sahəsinin araşdırılıb təqdimatının hazırlanması da ola bilər. Təqdimatın hazırlanması zamanı siz şagirdləri cütlərlə, yaxud da qrupla işləməyə sövq edə bilərsiniz. Bununla da təqdimatın reallaşdırılması üçün həm zaman baxımından vaxta qənaət etmiş, həm də şagirdlərdə birgə iş bacarıqlarını formalaşdırmış olarsınız.

Qiymətləndirmə hüquq sahələrinin fərqləndirmə bacarığına görə müəyyən edilir. Siz birinci və ikinci dərsin meyarlarını fərqli yaza bilərsiniz. Birincidə məhz fərqləndirmə əsas meyar götürülsə də, ikinci saat olan dərsdə təqdimat edilərsə, şagirdlərin fərqləndirmə ilə yanaşı, onların təqdimat hazırlama bacarıqları da qiymətləndirilərsə, daha yaxşı olar.

**Qiymətləndirmə meyarı:** *fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif hüquq sahələrini fərqləndirməkdə çətinlik çəkir. | Müxtəlif hüquq sahələrini fərqləndirməkdə müəllimin köməyindən istifadə edir. | Müxtəlif hüquq sahələrini fərqləndirərkən cüzi səhvlərə yol verir. | Müxtəlif hüquq sahələrini fərqləndirir. |



LAYİHƏ

# 21. NORMATİV HÜQUQİ SƏNƏDLƏR

**Alt standart:** 2.2.2. Normativ hüquqi sənədlərə istinad etməklə hüquq sahələrinə dair təqdimatlar hazırlayır.
**Məqsəd:** Normativ hüquqi sənədlərdən istifadə etməklə təqdimatlar hazırlayır.
**İnteqrasiya:** Az.t.: 5.1.3.

Motivasiya zamanı şagirdləri A blokundakı materialla tanış edin. Şagirdlər bu mətndə baş verən hadisəyə münasibət bildirməlidirlər. Onların diqqətini C blokundakı suala cəlb edin. Təsəvvür edin ki, məktəbdə hüquqlarınız pozulub. Bu halda "Hüquqlarınızı müdafiə etmək üçün hansı vasitələrə əl atardınız?" sualını verməklə şagirdlərin fəallaşmasına imkan yaradın. B blokuna aid olan hissələrlə, yəni mətnlə tanış olan şagirdləri müzakirələrə cəlb etmək dərsi daha da fəal edər. Onlara xatırlatmalar etdirərək tarix dərslərindən məlum olan qərar və qanunlar haqqında fikirlər söyləməyə imkan yaradın. C blokundakı "İlk yazılı qanunları vermiş hökmdar kim olmuşdur?" sualı şagirdlərin canlanmasına səbəb olacaqdır. Onların əksəriyyəti tarix dərslərindən bunu bilir. Siz Hammurapinin qanunları və onun cəmiyyətə təsiri barədə şagirdlərlə fikir mübadiləsi apara bilərsiniz. Bu, şagirdlərin cəmiyyət və hüquq haqqındakı təsəvvürlərini daha da formalaşdırmağa yardımçı olacaqdır.

Tədqiqatı aparmaq üçün "Cəmiyyət həyatının tənzimlənməsində hüququn rolu varmı?" sualını vermək olar. Bu tədqiqatın aparılmasında ziqzaq üsulundan istifadə etmək olar. Yaxud da F blokunda verilmiş tapşırıqlar əsasında qrup işlərini reallaşdırmaq mümkündür.

Şagirdlərə verilmiş müəyyən sənədlərlə bağlı müzakirələr aparın. Bu müzakirələrin nəticəsi olaraq şagirdlərə maraqlı gələn istiqamətlər üzrə ev tapşırığı kimi təqdimat hazırlamağı tapşırmaq olar. Məsələn, hüquqi dövlətlərin əsas əlamətləri barədə təqdimat hazırlayın. Yaxud da BMT-nin insan hüquqlarına dair digər sənədlərini araşdıraraq məlumatlar əldə edin.

Təbii ki, bu tapşırıqları verərkən siz sinfinizin bilik və bacarıq səviyyəsini də nəzərə almalısınız.

Bu mövzuya iki saat vaxt ayrıldığı üçün birinci saatda siz dərslikdə verilmiş mətn əsasında şagirdlərə təqdimat hazırlamağı tapşıra bilərsiniz. Digər ikinci saatda isə hüququn başqa sahələrinə müraciət etməklə müxtəlif normativ hüquqi sənədləri araşdırmağı şagirdlərə tapşırıb onun əsasında da təqdimatlar hazırlada bilərsiniz.

Aşağıda verilmiş normativ hüquqi sənədlərdən istifadə etməklə öz işinizi daha səmərəli qura bilərsiniz.

Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında "Bilik günü"nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında fərmanı (21 avqust 2004-cü il).

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə fərmanı (01 mart 2005-ci il).



LAYİHƏ

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısının və evdə təhsilin təşkili qaydalarının təsdiq edilməsi barədə qərarı (10 may 2002-ci il).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Xüsusi təhsil müəssisələri haqqında əsasnaməsinin təsdiq edilməsi barədə qərarı (10 may 2002-ci il).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sağlamlıq imkanları məhdud şəxslərin pulsuz xüsusi təhsil almaq qaydasının təsdiq edilməsi barədə qərarı (29 may 2002-ci il).

"Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medalla təltifolunma qaydası"nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin qərarı (14 yanvar 2010-cu il).

Ümumi təhsilin təhsil səviyyələri üzrə müddətli, bir səviyyədən digər səviyyəyə keçid qaydaları barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (22 iyun 2010-cu il).

"Məktəblərin fənn olimpiadaları haqqında qaydalar"ın təsdiq edilməsi barədə Təhsil nazirinin əmri (12 dekabr 2014-cü il, 1256 nömrəli əmr).

Məktəblərin fənn olimpiadaları haqqında qaydalar.

"Kiçik Akademiya" haqqında Əsasnamə.

Bu sənədlərə Təhsil nazirinin əmri ilə təsdiq edilmiş Ümumtəhsil məktəbləri üçün dərsliklərin nəşri, çapı və paylanması qaydalarını da aid etmək olar.

Qiymətləndirmə məqsədəuyğun müəyyənləşdirilmiş meyar əsasında aparılır.

**Qiymətləndirmə meyarı:** *təqdimat hazırlama*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Normativ hüquqi sənədlərdən istifadə etməklə təqdimat hazırlamaqda çətinlik çəkir. | Normativ hüquqi sənədlərdən istifadə etməklə təqdimat hazırlayarkən səhvlərə yol verir. | Normativ hüquqi sənədlərdən istifadə etməklə təqdimat hazırlayarkən müəllimin köməyindən istifadə edir. | Normativ hüquqi sənədlərdən istifadə etməklə təqdimat hazırlayır. |



LAYİHƏ

# 22. KONSTİTUSİYADA TƏHSİL HÜQUQU

**Alt standart:** 2.2.1. Hüquq sahələrini fərqləndirir.
**Məqsəd:** Konstitusiyada təhsil hüququnu digər hüquq sahələrindən fərqləndirir.
**İnteqrasiya:** Üm.t.: 3.1.2.

Dərsə başlayarkən şagirdləri A blokundakı motivasiyaya cəlb etmək lazımdır. Şagirdlərin diqqətini Nihad haqqında verilmiş mətnə cəlb etməklə onlara bu barədə fikir söyləməyə imkan yaradın. Bundan sonra B blokundakı sualları şagirdlərə verin, yaxud da oxudun.

Şagirdlərin cavabları müxtəlif ola bilər, lakin onların diqqətini "Hər kəsin təhsil almaq hüququ vardır" fikrinə cəmləməyə çalışın. Təbii ki, siz bu zaman şagirdlərin özündən cavabı almağa çalışın.

Tədqiqat "Hansı təhsil hüquqlarımız var? Onlar necə qorunur?" sualları ətrafında aparıla bilər. C blokundakı mətnlə şagirdləri İNSERT üsulundan istifadə etməklə tanış edə bilərsiniz. Mətnin müzakirəsi zamanı Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsini şagirdlərin diqqətinə çatdırmaqla ölkəmizdəki təhsilə verilən önəmi vurğulamış olarsınız. Onlara ötən ildən təhsil haqqında öyrəndiklərini xatırlamaları üçün suallardan istifadə edin. Tədqiqatın aparılması üçün şagirdlərə F blokunda yerləşdirilən tapşırıqları verə bilərsiniz. Bu zaman şagirdlərə verilən əlavə resurslardan istifadə etmək imkanı yaradılır. Bu resurslar Azərbaycan Respublikasının Konstitusiyası, "Təhsil haqqında" qanun, BMT-nin təhsil haqqında qərarları və s. ola bilər. Bu məqsədlə də öncədən hazırlanmış paylama materiallarını şagirdlərə təqdim etmək olar.

Məlumatın mübadiləsi və müzakirəsindən sonra şagirdlərlə birgə nəticələri müəyyənləşdirin. Həmçinin özünüqiymətləndirmə vasitəsilə şagirdlərin formativ qiymətləndirilməsini reallaşdırmağınız səmərəli ola bilər.

Mövzuya dair esse yazmanı yaradıcı tətbiqetmə mərhələsində verə bilərsiniz. Yaxud da ev tapşırığı verilməsi tövsiyə olunur.

**Qiymətləndirmə meyarı:** *fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təhsil hüququnu fərqləndirməkdə çətinlik çəkir. | Təhsil hüququnu fərqləndirərkən səhvlərə yol verir. | Təhsil hüququnu müəllimin köməyi ilə fərqləndirir. | Təhsil hüququnu asanlıqla fərqləndirir. |

LAYİHƏ

# 23. ƏMƏK VƏ ONUN NÖVLƏRİ

**Alt standart:** 2.3.1. Əmək və onun növlərinin iqtisadi proseslərdəki rolunu şərh edir.
**Məqsəd:** Əmək və onun növlərinin iqtisadiyyatdakı rolunu şərh edir.
**İnteqrasiya:** C.: 3.2.3.

Mövzu Humay və onun ailə üzvləri haqqında məlumatla başlayır. Humayın hakim olma istəyi, eləcə də onun yaxınlarının müxtəlif peşə sahibi olması şagirdlərdə motivasiya yaratmaq imkanını zənginləşdirir. Diqqəti motivasiyaya yönəltdikdən sonra şagirdlərə öz ailə üzvlərinin çalışdığı sahələri yazmalarını deyin. Bu, çox qısa bir müddət üçün verilmiş tapşırıq olmalıdır. Şagirdlər tapşırığı verilən vaxt müddətində icra etdikdən sonra onlara mətnlə tanış olmalarını təklif edin. Bu zaman siz ziqzaq üsulundan istifadə etməklə mətni tez bir müddətdə şagirdlərə öyrədə bilərsiniz. Yaxud da fasiləli oxu üsulundan istifadə edə bilərsiniz. C blokunda verilmiş "Konkret əməyə daha hansı peşələri əlavə etmək olar?" sualını şagirdlərə ünvanlayıb cavab almaqla dərsin gedişini fəallaşdıra bilərsiniz. Atalar sözünü müzakirə etməklə şagirdlərin təfəkkürünün inkişafına, eləcə də ədəbiyyat dərsi ilə inteqrasiyaya imkanlar açmış olarsınız.

Tədqiqat işi "Əmək və onun növlərinin iqtisadiyyatda rolu nədən ibarətdir?" sualı ətrafında aparılmalıdır. Tədqiqatın aparılması zamanı şagirdlər F blokunda verilmiş tapşırıqlardan istifadə edə bilərlər. Bu işi fərdi reallaşdırmaq daha düzgün olar. Fərdi işi variantlaşdırıb vermək olar. Sinifdəki şagirdləri 1-2 sadalamaqla onlara F blokundakı 1-ci və 2-ci tapşırıqları vermək olar. 1-ci varianta daxil olanlar gündəlik həyatlarında gördükləri işlərin siyahısını tərtib edərək onun hansı növə aid olduğunu qeyd edəcəklər. 2-ci variantın icraçıları isə esse yazmalı olacaqlar. Esse sinifdəki şagirdlərin bilik və bacarığına görə 6-7 cümlə və daha artıq ola bilər. Fərdi işlər bitdikdən sonra ümumiləşmələr aparmaqla əməyin, eləcə də onun növlərinin iqtisadiyyatdakı rolunu şagirdlərlə birgə vurğulamaq gərəkdir. Bu mövzunu reallaşdırarkən şagirddə əmək və onun növlərinin rolunu şərh etmək bacarığı formalaşdırmağa çalışmalıyıq. Qiymətləndirmə meyarı müəyyən edərkən şərhetmədən istifadə oluna bilər. F blokundakı 3-cü tapşırıq ev tapşırığı kimi verilərsə, şagirdlərin ədəbiyyat dərsi ilə inteqrasiya imkanı formalaşacaqdır.

**Qiymətləndirmə meyarı:** *şərhetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əmək və onun növlərinin iqtisadiyyatdakı rolunu şərh etməkdə çətinlik çəkir. | Əmək və onun növlərinin iqtisadiyyatdakı rolunu qismən şərh edir. | Əmək və onun növlərinin iqtisadiyyatdakı rolunu müəllimin köməyi ilə şərh edir. | Əmək və onun növlərinin iqtisadiyyatdakı rolunu sərbəst şərh edir. |



LAYİHƏ

# 24. İQTİSADİ PROSESLƏRDƏ ƏMƏYİN ROLU

**Alt standart:** 2.3.1. Əmək və onun növlərinin iqtisadi proseslərdəki rolunu şərh edir.
**Məqsəd:** İqtisadi proseslərdə əmək və onun növlərinin rolunu şərh edir.
**İnteqrasiya:** C.: 3.2.3.

A blokunda verilmiş hissə sizin motivasiya yaratmanıza kömək etmiş olacaqdır. Şaxələndirmə üsulundan istifadə edərək şagirdlərə belə bir sualla da müraciət edə bilərsiniz: “Tələbatlarınız hansılardır? Onların adlarını sadalaya bilərsinizmi?” Yönləndirici sualların köməyi ilə şagirdlərin fikirlərini ya lövhədə, ya da flipçartda qeyd edib şaxələndirmək olar.




Əslində, şagirdlər tarix dərslərində dövlətləri dövr baxımından araşdırarkən çox vaxt onun iqtisadi həyatını öyrənmiş olurlar. İqtisadi cəhətdən yüksək olan dövlət, yaxud da iqtisadiyyatı zəif olan dövlət anlayışları onlara tanışdır.

Tədqiqat “Cəmiyyətin həyatında iqtisadiyyatın rolu nədən ibarətdir?” sualı ətrafında aparılmalıdır. Şagirdlərin fərziyyələrinin dinlənilməsi, lövhədə və yaxud flipçartda qeyd olunması məqsədəuyğundur.

Bu mövzunu reallaşdırarkən fərdi və kollektiv iş formasından istifadə etmək də olar. Şagirdlərə mətnlə tanış olmaq üçün vaxt verilir. Sonra onlara B blokunda verilmiş suallar üzərində müzakirələr aparmaq tapşırığı verilir. F blokunda olan “Gündəlik tələbatlarınızın siyahısını hazırlayın” tapşırığı fərdi olaraq reallaşdırılmalı və ortaq cəhətlər müəyyən edilib ümumiləşmə aparılmalıdır.

Bu fikri şagirdlərlə birgə müzakirə edə bilərsiniz. Bu zaman şagirdlərin dedikləri fikirləri lövhədə qeyd edin. Bu işin daha səmərəli olması üçün yaxşı nəticə verə bilər.

F blokunda verilmiş “Ümummilli lider Heydər Əliyevin söylədiyi fikri başlıq seçərək esse yazın” tapşırığını yaradıcı tətbiqetmə mərhələsində və yaxud da ev tapşırığında şagirdlərə işləmək üçün vermək olar.

Qiymətləndirməni apararkən məqsədəuyğun olaraq şagirdlərin səciyyələndirmə bacarığını əsas götürmək lazımdır. Qiymətləndirməni dərsin istədiyiniz mərhələsində apara bilərsiniz. Həm qruplarda, həm də kollektiv müzakirələrdə fəal iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilərlər.



LAYİHƏ

Şagirdlərin qiymətləndirilməsi üçün özünüqiymətləndirmə vərəqlərindən istifadə etmək olar. Bu zaman aşağıdakı özünüqiymətləndirmə vərəqlərini dərsin sonunda hər bir şagirdə paylayın.

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |

**Qiymətləndirmə meyarı:** *səciyyələndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İqtisadiyyatı cəmiyyəti idarə edən bir vasitə kimi səciyyələndirməkdə çətinlik çəkir. | İqtisadiyyatı cəmiyyəti idarə edən bir vasitə kimi səciyyələndirərkən bir sıra səhvlərə yol verir. | İqtisadiyyatı cəmiyyəti idarə edən bir vasitə kimi müəllimin köməyi ilə səciyyələndirir. | İqtisadiyyatı cəmiyyəti idarə edən bir vasitə kimi səciyyələndirir. |



LAYİHƏ

# IV TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR

**1. Aşağıdakı fikirlərdən hansını daha dolğun hesab etmək olar?**

a) Hər hansı bir məhsulun alışı, satışı, istehsalı cəmiyyətin iqtisadi həyatının əsasını təşkil edir.

b) Cəmiyyətin həyatının dəyişib inkişaf etməsində xalqımızın milli-mənəvi dəyərləri mühüm rol oynamır.

c) Azərbaycan Respublikasının həyatında dini və yerli etnik ittifaqlar əsas yer tutur.

d) Şəhərlərdə abadlıq işlərinin aparılması cəmiyyətin siyasi həyatının əsas tərkib hissəsidir.

**2. Cəmiyyətin həyatında iqtisadiyyatın rolunu necə izah etmək olar?**

a) Dövlətin güclü iqtisadiyyata malik olması ölkədə yalnız bir sahənin yüksək səviyyədə inkişaf etməsinə əsaslanır.

b) İqtisadiyyatın inkişafı xalqın daha yaxşı həyat şəraitinin təmin olunmasına səbəb olur.

c) İnsanlar daha çox nemətlər əldə edərək öz məqsədlərinə nail olurlar.

d) İqtisadi münasibətlərin inkişaf etməsi həm istehsal, həm də qeyri-istehsal sahələrinin inkişafına əsaslanır.

**3. Əməyin növlərinə aid olan sıranı göstərin:**

a) Birinci və ikinci ictimai əmək bölgüsü.

b) Sənaye əməyi; istehsal əməyi; fərdi və kollektiv əmək; əl əməyi; elmi əmək; kənd təsərrüfatı əməyi.

c) Peşəkar əmək; sənətkar əməyi; fərdi və kollektiv əmək; əl əməyi; elmi əmək; təhsil əməyi.

d) Birinci, ikinci və üçüncü ictimai əmək bölgüləri; istehsal əməyi; hüquqi əmək; cüt əməyi; elmi əmək; kompüter əməyi.

**4. Sizin gündəlik həyatınız, əsasən, hansı əmək fəaliyyətinə aiddir? Fikrinizi əsaslandırın?**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

LAYİHƏ

**5. Dövlətçilik ənənələrimizə aid olan fikirlər hansılardır?**

1) dövlətin düzgün siyasi addımları
2) dövlətin öz torpaqlarını işğaldan xilas etmək üçün göstərdiyi cəhdlər
3) mərkəzləşmiş dövlətin yaradılması

a) yalnız 2
b) 1 və 2
c) yalnız 3
d) hamısı

**6. Azərbaycan Respublikası haqqında verilmiş fikirlərdən hansı səhvdir?**

1) Demokratik respublikadır
2) Prezident xalq tərəfindən seçilir
3) Monarxiyadır
4) Parlamenti prezident seçir

a) Bütün cavablar doğrudur.
b) 1, 3
c) 3, 4
d) 1, 2, 3

**7. Aşağıda sadalanan qurumlardan hansıları cəmiyyəti idarə edənlərə aid etmək olmaz?**

a) siyasi partiyalar
b) qadın hüquqlarını tənzimləyən qurumlar
c) qeyri-hökumət təşkilatları
d) dini qurumlar

**8. Hüquqi dövlət necə olmalıdır? Fikrinizi əsaslandırın.**

___

___

___

___



LAYİHƏ

**9. Verilənlərdən birində uyğunluq gözlənilməmişdir.**

a) Təhsil hüququna əsasən hər kəsin təhsil almaq hüququ var.
b) Ailə hüququ dövlətin əsas gəlir mənbəyini nizama salmaq məqsədi daşıyır.
c) Əmək hüququna əsasən on beş yaşına çatmış hər bir şəxs valideynlərindən birinin yazılı icazəsi ilə işçi kimi əmək müqaviləsi bağlaya bilər.
d) Hər bir vətəndaş öz hüquq və vəzifələrini bilməlidir.

**10. “Uşaq hüquqları haqqında” Qanunun 22-ci maddəsi nədən bəhs edir?**

LAYİHƏ

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003
2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə konsepsiyası “Azərbaycan müəllimi” qəzeti, 6 fevral, 2009
3. Çingiz İsmayılov. “Xəzər dənizinin və sahilyanı ərazilərin ekologiyası”. Bakı, “Ayna Mətbuat evi”, 2005
4. E.Kərimov, B.Osmanov. İqtisadi nəzəriyyə. Bakı, 2004
5. Ekoloji siyasət. Bakı, 2008
6. Ə.Abbasov. Kurikulum islahatının əsas istiqamətləri. “Azərbaycan məktəbi” jurnalı, №4, 2011
7. Fövqəladə hadisələrin təsnifatı (məlumat kitabı). Bakı, 2001
8. F.Əkbərov. Ən böyük əxlaq. Bakı, 2004
9. İnsan hüquqlarının tədrisi. Müəllimlər üçün proqram. Bakı, 2003
10. Qurani-Kərim (Tərcüməçilər: akad. Ziya Bünyadov və prof. Vasim Məmmədəliyev)
11. Qida və sizin sağlamlığınız. Məktəblilər üçün tədris proqramı. Açıq Cəmiyyət İnstitutu. Bakı, 1999
12. Maqsud Qasımov. “Sağlam həyat tərzi uğrunda”. Bakı, 2005
13. M.Əmirov. “İnsan və Cəmiyyət”. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2010
14. Məktəbdə vətəndaş təhsili. Metodik vəsait. Norveç Qaçqınlar Şurası. 2002
15. M.Mərdanov, F.Şahbazlı. “Azərbaycanın təhsil siyasəti (1998–2005)”. I, II kitab. Bakı, “Təhsil”, 2005
16. Nazim Əkbərov. Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları. “Bərəkət” nəşriyyatı, 2010
17. Nazim Əkbərov. Ailədə və cəmiyyətdə əxlaq və davranış qaydaları. (Ümumtəhsil məktəbləri şagird və müəllimləri üçün vəsait). Bakı, “Bərəkət” nəşriyyatı, 2009
18. “Özünə və başqalarına kömək etməyi bacar” (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi). Bakı, 2004
19. Ramil Əliyev. İqtisadi təhlilin nəzəriyyəsi. Bakı, 2002
20. Rəfiqə Əliyeva, Qara Mustafayev, Sevinc Hacıyeva. “Ümumi ekologiya”. Bakı, 2004
21. S.C.Əliyev, H.M.Hacıyeva, N.C.Mikayılzadə. “Tibbi biliklərin əsasları”. Bakı, 2004
22. S.Tağıyeva və b. “Həyati bacarıqlara əsaslanan təhsil”. Müəllimlər üçün tədris vəsaiti. (V–IX siniflər). Bakı, 2006
23. Ş.Ə.Topçiyeva, R.T.Qəndilov, S.Ş.Tağıyeva, Ş.Ə.Qocayev, G.N.Hacıyeva, N.Ə.Məmmədova, A.T.Hacıyeva və b. “Həyati bacarıqlara əsaslanan təhsil”. “Çaşıoğlu”, 2007
24. “Təhsil haqqında Azərbaycan Respublikasının qanunu”. Bakı, 2009
25. Z.Ə.Nadirov, D.B.Şirinova, T.D.Ağayev, R.R.Əhmədova, M.C.Səfərəliyev. “Atmosferə düşən zərərli maddələrin hesablanma əsasları”. Sumqayıt, 2005
26. Z.Qaralov. Tərbiyə. III cild. Bakı, 2003
27. Z.Veysova. Fəal təlim metodları. Bakı, 2007

**Türk dilində**

28. Akseki, Ahmet Hamdi. Ahlak dersleri. İstanbul, 1968
29. Delius, Harald. Etik, Günümüz Felsefe Disiplinleri. D.Özlem, İstanbul
30. Sosial bilgiler dersi ögretim proqramı. Ankara, 2005




LAYİHƏ